Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

26
FEVRAL
2020-ci il

№ 35 (4166)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ZAMANINDA CİLOVLANMAYAN ERMƏNİ İRTİCASININ YENİ İDDİASI - «MÜQƏDDƏS YERUSƏLİMDƏ BİZƏ DƏ YER OLMALIDIR»...

■ səh. 7 ■

Münhen debatında rüsvayçı məğlubiyyətdən sonra Paşinyan Əliyevlə üz-üzə Qarabağ danışığından uzun müddət yayınacaq...
■ səh. 5 ■

Xocalı soyqırımının beynəlxalq məhkəmədə tanınma perspektivləri - Azərbaycanın yeni və köhnə hədəfi...
■ səh. 3 ■

Ermənistanda anti-Rusiya demarşının yeni dalğası - iki fakt - "Planet Rossiya"nın yayımı dayandırılsın və Xocalıda "rus əli"...
■ səh. 7 ■

Paşinyanın Qarabağ avantüralarının iki neqativ nəticəsi barədə Ermənistanda rəy - "özümüzə ziyan dəyir", "Azərbaycan legitim müharibəyə əsaslar qazanır"...
■ səh. 9 ■

Ermənilər ötən ilin yayında Qazax və Ağstafa istiqamətlərində mövqe itkiləri ilə barışa bilmir...
■ səh. 8 ■

"COVİD-19" neftdən sonra dünya qızıl bazarını da yerindən oynatdı - lakin bahalaşma istiqamətində...
■ səh. 14 ■

Koronavirus məsələsi fonunda Səhiyyə Nazirliyi qınaq obyektinə niyə çevrilir...
■ səh. 15 ■



## Ərdoğan Bakıda... Azərbaycan Prezidenti ilə təkbətək görüş və Strateji... Şuranın iclası...

■ səh. 2 ■



Münhendə debat məğlubiyyətindən sonra Ermənistan sərhədlərdə pozuculuq aksiyalarını artırıb - böyük səbəb...
■ səh. 5 ■

Başçı həbsləri gündəmə iki sual çıxardı - başçıların mütləq YAP üzvlüyü və müttəfiq partiyalardan icra başçılığına təyinatlar...
■ səh. 6 ■



Faşist Njdeni qəhrəmanlaşdıranlar, əfsanəvi qəhrəman Əhmədiyyə Cəbrayılovu «Vikipediya»dan sildirənlər...
■ səh. 11 ■

■ səh. 3 ■
Dövlət, millət, cəmiyyət olaraq Xocalı naminə nəyi edə bilməmişik...



■ səh. 4 ■
Azərbaycan Avroittifaqla mübahisəli yeni sazişinə İtaliyadan yüksək dəstək aldı



■ səh. 6 ■
ABŞ-ın bir neçə konqresmeni Azərbaycan düşmənçiliyini dayandırmır - Abxaziya, Osetiya və Dnestryanı yox, qondarma "Artsax"a bəli...



■ səh. 10 ■
Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında necə yaradıldı...



■ səh. 12 ■
Azərbaycanda elmi iş rəhbərlərinin çoxuna məxsus ziyanlı nümunə - elmi işləri oxumadan imza atmaq...



# Ərdoğan Bakıda... Azərbaycan Prezidenti ilə təkbətək görüş və Strateji... Şuranın iclası...

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan fevralın 25-də Azərbaycana səfərə gəlib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, Xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşılayıb.**

Daha sonra Türkiyə Prezidentinin rəsmi qarşılanma mərasimi olub. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılayıb.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. Görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub. Ölkələrimizin həyata keçirdiyi birgə qlobal layihələrin əhəmiyyəti vurğulanıb.

Türkiyə Prezidentinin Azərbaycana səfərinin iki ölkə arasında əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Görüşdə ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Həmin gün Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iclasda iştirak ediblər.

Prezident İlham Əliyev deyib: "Bu gün təkbətək görüş əsnasında Türkiyə-Azərbaycan dostluq-qardaşlıq əlaqələrinin bir çox istiqamətlərini müzakirə etdik. Bir daha əmin olduq ki, aramızdakı əlaqələr strateji xarakter daşıyır, dostluq-qardaşlıq üzərində qurulubdur.



Keçən il əlaqələrimiz üçün çox uğurlu olubdur. Biz Sizinlə bir neçə dəfə görüşmüşük. Siyasi, iqtisadi, enerji, nəqliyyat - bütün sahələrdə çox böyük nailiyyətlər əldə edilib. Onların arasında əlbəttə ki, TANAP layihəsinin Avropa sərhədinə çatdırılmasını və digər layihələri qeyd etmək olar.

Bir sözlə, bu gün keçirilən Azərbaycan-Türkiyə Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısı əminəm ki, əlaqələrimizin gələcək inkişafı üçün çox önəmli olacaq. Gündəlikdə bir çox məsələlər vardır. Bu məsələlərin müzakirəsi və qəbul ediləcək qərarlar, eyni zamanda, imzalanacaq ikitərəfli sənədlər əlaqələrimizi böyük dərəcədə gücləndirəcək".

Prezident Rəcəb Tayyib Ərdoğan isə deyib: "Təkbətək görüşümüzdə Türkiyə-Azərbaycan əlaqələrini dərin təfərrüatı ilə müzakirə etmək imkanımız oldu. Siyasi, hərbi, iqtisadi, ticari, mədəni - bütün sahələrdə nələr edə biləcəyimizi və indiyə qədər nələr etdiyimizi ətraflı müzakirə etdik. Belə bir toplantıya - Şuranın səkkizinci iclasına sədrlik etməkdən duyduğumuz məmnunluğu da xüsusi vurğulamaq istəyirəm.

Dünən şəhid olan azərbaycanlı qardaşımıza - İbrahim qardaşımıza Allahdan rəhmət diləyirəm. Bundan qısa müddət əvvəl bir qardaşımız da şəhid olub, ona da Allahdan rəhmət diləyirəm. Bütün Azərbaycan xalqına da şəxsən öz adımdan, nümayəndə heyəti və bütün xalqım adından başsağlığı diləklərimi də burada ifadə etmək istəyirəm.

Bu gün keçirəcəyimiz görüşlərdə nazir yoldaşlarımız qarşılıqlı olaraq bir-birilə lazımi müzakirələr aparacaqlar.

Keçən il qardaşım Əliyev "Dağlıq Qarabağ Azərbaycandır və nida" deyərək fikrini açıq şəkildə ifadə etmişdir. Türkiyə olaraq bu ifadənin altına biz də imzamızı qoyarıq buradan təkrar etmək istəyirəm. Fevralın 9-da Milli Məclisə keçirilən seçkilərdə əldə etdiyiniz nəticənin də xüsusilə Azərbaycanımız üçün xeyirli olmasını Allahdan diləyirəm. Bu seçkilərin əmin-amanlıq və sabitlik şəraitində başa çatdırılmasından böyük məmnunluq və xoşbəxtlik duyduq.

Hörmətli qardaşım cənab Əliyevin liderliyi ilə reallaşdırılan islahatlar prosesini də təqdirlə izləyir, müşahidə edirik. İslahatlar prosesini dəstəkləmək məqsədilə bütün sahələrdə təcrübələrimizi Sizinlə bölüşməyə hazır olduğumuzu ifadə etmək istəyirəm.

Təbii ki, xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP, "Star" neft emalı zavodu kimi nəhəng layihələrə birlikdə imza atdıq. İndi əsas hədəf təxminən 4,5 milyard dollar olan ticarət dövriyyəmizi 2019-cu ildə müəyyənləşdirdiyimiz kimi 15 milyard dollara çatdırmaqdır. Bu məsələdə də qardaşımla razılıq əldə etdik. Bunun üçün bütün nazir yoldaşlarımız əllərindən gələn səyləri ortaya qoymalıdırlar".

Sonra prezidentlərin iştirakı ilə Azərbaycan-Türkiyə sənədləri imzalanıb. Dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər.

# Xocalı soyqırımı ilə bağlı 4500 nəfərdən çox şəxs dindirilib

**Xocalı soyqırımı istiqaməti üzrə cinayət təqibi zamanı 7500-ə yaxın prosessual hərəkətlər aparılıb. "Trend"in məlumatına görə, bunu hərbi prokuror Xanlar Vəliyev Azərbaycan Hərbi Prokurorluğunda Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar elmi-praktiki konfransda deyib.**

X.Vəliyev bildirib ki, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş şəxslərin müəyyənləşdirilərək mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb olunması, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədilə 2003-cü il dekabrın 18-də Azərbaycan Respublikası Baş prokurorunun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlərinin vahid əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılıb:

"2005-ci il mayın 5-dən isə həmin cinayət işinin istintaqı ibtidai araşdırmaya prosessual rəhbərlik Respublika Hərbi prokuroruna həvalə edilməklə Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılıb. Təkcə Xocalı soyqırımı istiqaməti üzrə cinayət təqibi zamanı 7500-ə yaxın prosessual hərəkətlər aparılıb, 1800-dən çoxu şahid və 2700-dən çoxu zərərçəkmiş qismində olmaqla 4500 nəfərdən çox şəxs dindirilib, 800-dən artıq müxtəlif növ ekspertiza keçirilib, digər istintaq hərəkətləri icra olunub. İstintaqla, o cümlədən iş üzrə həyata keçirilmiş müvafiq ekspertizaların ilkin hesablamalarına əsasən, müəyyən edilib ki, Xocalının işğalı ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon 250 min ABŞ dollarından artıq məbləğdə ziyan vurulub".

**"Məqsədimiz beynəlxalq məhkəmələr müstəvisində Xocalının soyqırım kimi tanıdılmasıdır". Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.**

*"Hesab edirəm ki, bununla bağlı səylərimizi daha da artırmalıyıq"*

Şöbə müdirinin sözlərinə görə, Xocalı faciəsinin beynəlxalq ictimaiyyət tərəfindən soyqırımı kimi tanınması istiqamətində səylər davam etdirilir: "Bu gün Xocalı faciəsinin beynəlxalq ictimaiyyətə təqdim olunması və soyqırımı aktı olaraq tanıdılması istiqamətində səylərimiz davam edir. Çox müsbət haldır ki, 10-dan artıq ölkənin parlamentləri və bir çox ölkənin yerli qanunverici orqanları səviyyəsində Xocalı insanlıq əleyhinə cinayət və soyqırım aktı kimi qəbul edilib. Əsas məqsədimiz beynəlxalq məhkəmələr müstəvisində Xocalının soyqırım kimi tanıdılmasına nail olunmasıdır ki, bu prosesdə də ictimai məlumatlandırma, "Xocalıya ədalət" kampaniyası, vətəndaş cəmiyyəti təşkilatlarımızın fəaliyyəti, diplomatik nümayəndəliklərimizin və diaspor təşkilatlarımızın fəaliyyəti çox önəmli xarakter daşıyır".

# Xocalı soyqırımının beynəlxalq məhkəmədə tanınma perspektivləri - Azərbaycanın yeni və köhnə hədəfi...

***Vüqar Rəhimzadə:** "Zamanla beynəlxalq məhkəmələr də Xocalı faciəsini soyqırım kimi tanıyacaqlar"*




Bu yöndə neçə ildir ki, Azərbaycan müəyyən səylər göstərir. Bir sıra ölkələrdə müxtəlif səviyyələrdə Xocalı insanlıq əleyhinə cinayət və soyqırımı aktı kimi qəbul edilib. Bütün bunlarla yanaşı, vacib məsələlərdən biri də beynəlxalq məhkəmələr müstəvisində Xocalının soyqırım kimi tanıdılmasıdır. Maraqlıdır, buna nail olmaq nə dərəcədə mümkündür? Bununla bağlı perspektivləri ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, zamanla beynəlxalq məhkəmələr də Xocalı faciəsini soyqırım kimi tanıyacaqlar: "Bütövlükdə, Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması ilə bağlı Azərbaycan tərəfindən bir sıra işlər görülüb. Ortada nəticə də var. Bir sıra ölkələr tərəfindən Xocalı faciəsi soyqırım kimi tanınıb. Bununla bağlı müxtəlif sənədlər qəbul edilib. Bizim ən böyük məqsədlərimizdən biri Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasıdır. Düşünürəm ki, gec-tez, daha geniş müstəvilərdə bu soyqırımı dünya dövlətləri tanıyacaqlar. Baxmayaraq ki, erməni diasporu müxtəlif vasitələrlə buna mane olmağa çalışır, ancaq Azərbaycanın bu istiqamətdə sistemli iş aparması zamanla öz nəticəsini verəcək. Çünki Azərbaycan bununla bağlı kifayət qədər böyük işlər görüb.

Bunun nəticəsidir ki, bir sıra ölkələr Xocalıda baş verənləri soyqırım kimi tanıyır. Xüsusən də Heydər Əliyev Fondunun bu yöndə gördüyü işlər qeyd olunmalıdır. Hesab edirəm ki, bununla bağlı səylərimizi daha da artırmalıyıq. Zamanla beynəlxalq məhkəmələr də Xocalı faciəsini soyqırım kimi tanıyacaqlar. Çünki bununla bağlı yetərincə sübut, şahid ifadələri var. O üzdən, səylərimizi maksimum artırmalıyıq".

***Vidadi ORDAHALLI***

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı adında Azərbaycan şəhəri erməni qəsbkarları tərəfindən yer üzündən silindi və 613 insan vəhşicəsinə məhv edildi.**




# Dövlət, millət, cəmiyyət olaraq Xocalı naminə nəyi edə bilməmişik...

***Samir Adıgözəlli:** "Bu bəşəri cinayətin törədilməsində təqsirli olanların hələ də tapılıb cəzalandırılmasına nail ola bilməmişik"*

Bu cinayət təkcə Azərbaycana qarşı yox, eləcə də müsəlman dünyasına qarşı olan vandalizm aktı idi. Aradan illər keçsə də, Azərbaycan xalqının qan yaddaşına əbədi həkk olunmuş bu faciə yenə ürəkləri göynədir, insanlarımızı qisasa çağırır. Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir və beynəlxalq ictimaiyyət bu barədə ətraflı məlumata malik olmalı və dünya birliyi bu soyqırıma siyasi-hüquqi qiymət verməlidir.

Mərhum Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevral ayının 24-də Milli Məclis "Xocalı soyqırımı günü" haqqında qərar qəbul edib, beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı tədbirlər görməyə çağırıb.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində bu gün dünyanın bir sıra dövlətləri, Amerika Birləşmiş Ştatlarının 20-yə yaxın ştatı Xocalı soyqırımını rəsmi olaraq tanıyıb. 57 ölkənin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı da Xocalı soyqırımını tanıyıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir sıra ölkələrin paytaxtlarında Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilib və keçirilir.

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq məlumat kampaniyası çərçivəsində Xocalı soyqırımının dünyaya tanıtdırılması üzrə çox önəmli işlər görülüb və bu fəaliyyət intensiv şəkildə davam etdirilir.

Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də iştirakı ilə keçirilən ümumxalq yürüşünü Azərbaycanın həyata keçirdiyi tədbirlərin zirvə nöqtəsi hesab etmək olar.

Xocalı hər zamanı ürəyimizdədir, onu heç zaman unutmayacağıq və bu faciəni dünyaya tanıtmaq kimi müqəddəs işi davam etdirib, işğal altındakı torpaqlarımızı azad edəcəyik, şəhidlərimizin qanını yerdə qoymayacağıq.

Bəs biz dövlət və millət olaraq Xocalı naminə nəyi edə bilməmişik?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Xocalı ilə bağlı kifayət qədər iş görülüb: "Təbii ki, dövlətimizin və qeyri-hökumət təşkilatlarının gücü çərçivəsində. Ancaq bu bəşəri cinayətin törədilməsində təqsirli olanların hələ də tapılıb cəzalandırılmasına nail ola bilməmişik. Tapılması deyəndə, onların hamısının adı bizim hüquq-mühafizə orqanlarına məlumdur. Əksəriyyəti sağdır, hətta qətliamda birbaşa iştirak etmiş şəxslərin bəziləri Ermənistan siyasi rəhbərliyinin ən üst qatında təmsil olundu, həmin ölkəyə rəhbərlik etdi. Onlarla bağlı biz bütün lazımi hüquqi prosedurları həyata keçirsək də, layiqli cəzaya layiq olmaları istiqamətində beynəlxalq məhkəmələr səviyyəsində heç bir addım atılmayıb. Cinayətkarların əksəriyyəti İnterpol xəttilə axtarışa verilib.

Nail ola bilmədiyimiz başqa bir detal isə bu faciənin soyqırım kimi tanınmasına dünyanın nüfuzlu ölkələrinin parlamentlərində tam nail olmaqdır. Hər iki istiqamət üzrə işlər davam edir. Ümidvaram ki, bu istiqamətlərdə də ciddi nəticələr əldə olunacaq".

***Məhəmmədəli QƏRİBLİ***



## Azərbaycan XİN Paşinyanın "inqilabi" təşəbbüslərinin əsl mahiyyətini ifşa etdi

*"Azərbaycan əsgərinin qətlə yetirilməsinin məsuliyyəti Ermənistan tərəfinin üzərindədir"*

**Bu ilin 24 fevral tarixində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Azərbaycanın Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətində növbəti dəfə atəşkəs rejiminin kobud şəkildə pozulması nəticəsində sərhədçi əsgərimiz Vəliyev İbrahim Ələmşah oğlu şəhid olub. Qeyd etmək istərdik ki, qanlı insident Azərbaycan-Ermənistan dövlət sərhədində baş verib. Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında deyilir.**

Qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin həm iki ölkənin dövlət sərhədində, həm də iki ölkə qoşunlarının təmas xəttində atəşkəsi davamlı şəkildə pozması və Azərbaycanlı hərbi və mülki şəxsləri hədəfə alması, bu ölkənin təcavüzkar siyasətini və ölkə rəhbərliyinin "inqilabi" təşəbbüslərinin əsl mahiyyətini açıq şəkildə göstərir.

Bu məqsədyönlü qəsdlə Ermənistan tərəfi bir daha açıq şəkildə təsdiq edir ki, məhz o, işğalçı ölkədir və Azərbaycanın işğal olunmuş ərazilərində yaratdığı oyuncaq rejim arxasında gizlənmək cəhdləri tamamilə əsassızdır.

Ermənistan silahlı qüvvələrinin törətdiyi Xocalı soyqırımının qurbanlarının anıldığı ərəfədə sözügedən hadisənin baş verməsi Ermənistanın öz çirkin əməllərini dünya ictimaiyyətinin diqqətindən yayındırmaq istiqamətdində atdığı növbəti mənfur və riyakar cəhdidir.

Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyan Dövlət Sərhəd Xidmətinin əsgərinin qətlə yetirilməsi cinayətdir və bu qanlı cinayətin məsuliyyəti Ermənistan tərəfinin üzərindədir.

Allah şəhidimizə rəhmət eləsin.

## Paşinyanın Xocalı cinayəti barədə yeni yalanı, həm də Rusiyanın üstünə yeni yürüş...

***Şamil Sabiroğlu:** "O, təzadlı açıqlamaları ilə həmin faciəni gah azərbaycanlıların öz üzərinə, gah da sırf rusların üzərinə atmaqla Ermənistan hakimiyyətinin yaxasını kənara çəkmək istəyir"*

**Ermənistan Baş naziri Nikol Paşinyan fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevlə debatda aldığı ağır təəssüratdan çıxa bilmir. Ölkəsinə qayıtdıqdan sonra Paşinyan Xocalı soyqırımı məsuliyyətini sələflərinin və ümumiyyətlə, ermənilərin üzərindən atmaq üçün bir status paylaşıb. Status belədir:**

"Fakt fakt olaraq qalır: Xocalıda azərbaycanlıların qırğınının Azərbaycandakı ermənilərlə ortaq heç nəyi yoxdur, bunu Rusiyanın 366-cı alayı edib. Bu faciədə bizim günahımız yoxdur". Bundan təxminən bir neçə dəqiqə sonra isə Paşinyan ciddi siyasi səhvə yol verdiyini anlayıb və paylaşımını silib.

Əvəzində isə bu sözləri saxlayıb:

"Fakt fakt olaraq qalır".

Qeyd edək ki, sözügedən statuslar skrin edilərək, erməni mediasında paylaşılıb.

Paşinyanın Xocalı ilə bağlı bu ikiüzlü davranışları necə izah oluna bilər?

"Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, o, Xocalı hadisələrinin canlı şahidlərindən biridir: "Həmin faciəni törədən birbaşa Ermənistan dövlətidir. Ermənistanın o zamankı hakimiyyətinin bu cinayətdə əlinin olması tam sübuta yetirilib. Rusların 366-cı motoalayının bu məsələdə rolunun olması da faktdır. Bununla da bağlı faktlar mövcuddur. Həmin alayın da rəhbərliyində təmsil olunanların böyük əksəriyyəti erməni əsilli olublar. Yəni həmin hadisə erməni hakimiyyətinin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırım olub. Paşinyanın bu məsələ ətrafında manipulyasiya etməsi gülünc görünür. O, təzadlı açıqlamaları ilə həmin faciəni gah azərbaycanlıların öz üzərinə, gah da, sırf rusların üzərinə atmaqla Ermənistan hakimiyyətinin yaxasını kənara çəkmək istəyir. Bu, mümkün deyil. Əminəm ki, nə vaxtsa həmin faciəni törədənlər məhkəmə qarşısında cavab verəcəklər. Rusların orda iştirakı da ermənilərin istəyi ilə olub. Bütün bunlar Ermənistanı məsuliyyətdən azad etmir. Xocalı insanlığa qarşı törədilmiş bir soyqırımdır. Onun ətrafında siyasi məqsədlərlə saxtakarlıq etmək mümükün deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan Avroittifaqla mübahisəli yeni sazişinə İtaliyadan yüksək dəstək aldı

***Ramil Hüseynov:** "Bu, Aİ ilə Azərbaycan arasında yeni sazişin bağlanmasını sürətləndirəcək"*

**Prezident İlham Əliyevin İtaliya Respublikasına baş tutan dövlət səfərini iki ölkə arasında münasibətlərin inkişafı baxımından tarixi hesab etmək olar.**

Dövlət başçısı səfər zamanı Romada İtaliya Prezidenti Sercio Mattarella, Baş Nazir Cüzeppe Konte və digər rəsmi şəxslərlə önəmli görüşlər keçirib. Səfər zamanı iki ölkə arasında bir çox mühüm sənədlər mübadilə edilib. Bunlardan ən əsası "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"dir. Birgə Bəyannamə qarşıdakı uzun illər ərzində Azərbaycan və İtaliyanın sıx əməkdaşlığını müəyyən edən, siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələri əhatə edən vacib sənəd hesab olunur. Sənəd ölkələr arasında strateji tərəfdaşlığın gələcək istiqamətlərini müəyyən edir, ikitərəfli münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir.




Bununla belə, "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"də vacib bir maddə var. Həmin maddədə qeyd edilir ki, İtaliya Azərbaycanın Avropa İttifaqı ilə imzalamağa hazırlaşdığı sazişin tezliklə dəstəklənməsini istəyir. Məlum olduğu kimi, sözügedən sazişin imzalanması ilə bağlı bəzi razılaşdırılmamış məqamlar var. Məsələ ondadır ki, Aİ enerji daşıyıcılarının dünya qiymətləri ilə əhaliyə satılmasını istəyir. Prezident İlham Əliyev də ötən il jurnalistlərə açıqlamasında qeyd etdi ki, biz o müqaviləni belə imzalaya bilmərik. Bu vəziyyətdə İtaliyanın Azərbaycana verdiyi dəstəyin hansı önəmi var?

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, bunun çox böyük önəmi var: "Məsələ ondadır ki, İtaliya Avropa İttifaqında sıradan bir ölkə deyil. Qurumun 28 üzvü var. Ancaq İtaliya 1957-ci ildə Avroittifaqın yaradıcılarından biri olub. İtaliya iqtisadi göstəricilərinə görə, Aİ-də üçüncü mövqedə dayanır. Bu həm də o deməkdir ki, İtaliya Aİ-də ciddi siyasi çəkiyə malikdir. Siyasi çəki həm də iqtisadi göstəricilərlə ölçülür. Nəzərə almaq lazımdır ki, İtaliya Azərbaycan üçün başlıca iqtisadi tərəfdaşdır. 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 6 milyard dollar həcmində olub.

İki ölkə arasında ticarət dövriyyəsində enerji daşıyıcıların həcmi ciddi çəkiyə malik olsa da, sonrakı mərhələlərdə digər sahələrdə də iqtisadi mübadilənin artacağı gözlənir. Hesab edirəm ki, iki ölkə arasında imzalanmış Birgə Bəyannamədə sözügedən məqamın qeyd edilməsi Aİ ilə Azərbaycan arasında yeni sazişin bağlanmasını sürətləndirəcək. Aİ Azərbaycanla bağlı tələblərini yumşaldacaq. Qeyd edim ki, Avroittifaqla Azərbaycan arasında yeni saziş üzərində iş gedir. İtaliya da qurumda söz sahibi olan ölkələrdən biridir. Ona görə də bunun çox mühüm əhəmiyyəti olacağı qənaətindəyəm".

***Vidadi ORDAHALLI***

# Türkiyə səfirliyi sərhəd problemindən Naxçıvanın zərər görməməsi üçün tədbirlər görüldüyünü açıqladı

**Türkiyə dövlətinin müvafiq qurumları İranda yayılmış koronavirusla bağlı İrandan Türkiyəyə keçidlə əlaqədar sərhəd qapılarında bəzi tədbirlər görüb. Bu çərçivədə Naxçıvandan da Türkiyəyə keçmək yönündə bəzi addımlar atılır.**

Baki-xeber.com-un xəbərinə görə, bu sözləri Türkiyə Səfirliyinin Mətbuat müşaviri Hüseyn Altınalan Naxçıvanla Türkiyə arasında sərhədin bağlanacağı barədə danışılanları şərh edərkən deyib. H.Altınalanın sözlərinə görə, hazırda bu addımların Naxçıvana zərər vurmaması məqsədilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyi ilə təmaslar davam edir.



Xatırladaq ki, koronavirus təhlükəsi səbəbindən Türkiyənin İranla sərhəddəki Ağrı-Gürbulaq, Hakkari-Esendere ve Van-Kapıköy sərhəd-keçid məntəqələri artıq müvəqqəti olaraq bağlanıb. Bu arada Türkiyənin İğdır bölgəsindən Naxçıvana açılan Dilucu sərhəd məntəqəsində də hərəkətin məhdudlaşdırılacağı bildirilib. Türkiyənin Səhiyyə naziri Fahrettin Koca İranın Səhiyyə naziri ilə danışdığını və vəziyyətin getdikcə pisləşməsi səbəbindən İranla sərhədi müvəqqəti olaraq bağlamaq qərarına gəldiklərini deyib:"İranla 3 quru sərhəd məntəqəmiz var. Əlavə olaraq, İğdırdan Naxçıvana açılan Dilucu sərhəd qapısında da məhdudiyyət tətbiq olunacaq".

**Nazir deyib ki, İrandan Türkiyəyə uçuşlar dayandırılsa da, Türkiyədən İrana aviareyslər davam edir.**

**Məlum olduğu kimi, bir neçə gün əvvəl Münhendə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Tərəflər arasında Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair fikir mübadiləsi aparılıb.**

*"Hesab edirəm ki, Ermənistanın bu siyasəti danışıqlar prosesindən uzaqlaşmaqdır"*

# Münhendə debat məğlubiyyətindən sonra Ermənistan sərhədlərdə pozuculuq aksiyalarını artırıb - böyük səbəb...

***Məhəmməd Əsədullazadə:** "Cəbhə bölgəsində təxribatların artması Paşinyanın Münhendə üzləşdiyi məğlubiyyətlə birbaşa əlaqəlidir"*

O cümlədən, elə həmin gün Münhen Təhlükəsizlik Konfransı çərçivəsində iki dövlət başçısının iştirakı ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib.

Münhen debatındakı biabırçı məğlubiyyətindən sonra Paşinyan müxtəlif təxribatlara əl atdı. Paşinyan Dağlıq Qarabağa gələrək güzəştli sülh imzalamağa hazırlaşdığı barədə yayılan xəbərləri təkzib edərək, daha radikal açıqlamalar verdi. Bununla paralel, cəbhə xəttində gərginlik artmağa başladı. Nəticədə Azərbaycan əsgəri şəhid oldu. Bir sözlə, Münhen debatından sonra atəşkəsin pozulması halları intensivləşib. Digər tərəfdən, separatçı qurumda silahlı qüvvələr döyüş hazırlığı vəziyyətinə gətirildi. Belə ki, Azərbaycanın işğal altındakı torpaqlarında Ermənistan ordusu döyüşə hazır vəziyyətə gətirilib. Təlimlər zamanı 3 mindən artıq hərbçinin zirehli texnika və artilleriya vasitələrinin müşayiəti ilə yerdəyişmə etdiyi deyilir. Maraqlıdır, bütün bunların səbəbini ekspertlər nə ilə izah edirlər?

Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, cəbhə bölgəsində təxribatların artması Paşinyanın Münhendə üzləşdiyi məğlubiyyətlə birbaşa əlaqəlidir: "Bütün bunların arasında ciddi əlaqə var. Ermənistan daim danışıqların intensiv mərhələsində aktiv şəkildə danışıqları sabotaj etmək kursunu götürür. Cenevrədə başlanan danışıqlar prosesindən ayrılmaq üçün Paşinyan Münhendə psixoloji məğlubiyyətini ört-basdır etmək məqsədilə növbəti dəfə danışıqlara zərbə vuran




açıqlma verdi. Bunun ardınca Azərbaycan tərəfinə diversiya hücumları təşkil etdilər və hərbçimiz şəhid oldu. Eyni zamanda, işğal altındakı Qarabağda hərbi təlimlərə başladılar. Hesab edirəm ki, Ermənistanın bu siyasəti danışıqlar prosesindən uzaqlaşmaqdır. Çünki iki aydan sonra danışıqlarda yeni mərhələ başlamalıdır.

İndidən Ermənistan bu yolu tutub ki, kompromisə getməsin. Ancaq danışıqların ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə keçiriləcəyini nəzərə alsaq, bu, növbəti dəfə vasitəçilərin işinə kölgə salmış olur. Hesab edirəm ki, Minsk Qrupu özü Ermənistana etiraz etməli və İrəvana substantiv danışıqlar mərhələsinə başlaması üçün təzyiq etməlidir. Hazırda Ermənistan bu təxribatları törətməklə, bütövlükdə, prosesə mane olur".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Münhendə İlham Əliyevlə Nikol Paşinyan arasında baş tutan debatın əks-sədası hələ də eşidilməkdədir. Xüsusilə də Ermənistandan bu məsələyə verilən reaksiyalardan aydın olur ki, cəmiyyət Paşinyanı bütün erməni xalqını təhqir etdiyinə görə lənətləyir.**



# Münhen debatında rüsvayçı məğlubiyyətdən sonra Paşinyan Əliyevlə üz-üzə Qarabağ danışığından uzun müddət yayınacaq...

***Yeganə Hacıyeva:** "Paşinyanın Münhendəki açıq məğlubiyyətindən sonra tez bir zamanda təkbətək görüşə maraq göstərəcəyi inandırıcı deyil"*

İlham Əliyevin aşkar qələbəsilə keçən debatdan sonra belə bir sual da meydana çıxır: Paşinyan bundan sonra İlham Əliyevlə üz-üzə formatda Qarabağ məsələsini yaxın zamanda müzakirə etməyə hazır olacaqmı?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son iki ildə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın beynəlxalq nizamlayıcı missiya rəhbərləri, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin təşəbbüsü ilə çoxsaylı rəsmi və qeyri-rəsmi görüşü baş tutub: "Görüşlərdə adəti üzrə Ermənistan tərəfi guya konstruktiv mesajlı mövqedə görsənməyə çalışsa da, görüşlər sonrası Nikol Paşınyanın Ermənistanda daxili auditoriya üçün konfliktin həllinə neqativ təsirli mesajlarını eşidirik. Bunun Ermənistanın ənənəvi status-kvonun uzanmasına xidmət edən mövqeyindən başqa həm də bir neçə başqa səbəbi də var. Məsələ ondadır ki, bu görüşlər, birmənalı olaraq, İlham Əliyevin sərt, beynəlxalq hüquqa söykənən məntiqi mövqeyi ilə seçilən üstünlüyü şəraitində keçir. Bu isə, əlbəttə, Nikol Paşınyanın daxildə onsuz da aşağı olan nüfuzunu daha da ayaqlar altına atır.

Biz bunu istər 2018-ci il dekabrın 6-da Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi sammiti çərçivəsində Prezident İlham Əliyev və onda hələ Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyanla görüşündən sonra, ardınca Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığının 10-cu ildönümü ilə bağlı tədbir çərçivəsində görüşündən sonra, keçən il Davos Dünya İqtisadi Forumu çərçivəsində, Avstriyanın paytaxtı Vyanadada görüş zamanı, Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında və nəhayət, bu il Münhendə keçirilən Təhlükəsizlik Konfransı çərçivəsində görüşlərdən sonra müşahidə edirik. Görüşlər sonrası Paşinyan ölkə daxilində nüfuzunu dirçəltmək məqsədilə kəskin mesajlar verir. Bu yanaşma daxildə Paşinyanın qısa bir müddət üçün işinə yarasa da, uzunmüddətli hesabda onu bir siyasətçi kimi bitirdi.

Növbəti mərhələ kimi ölkə rəhbərlərinin görüşünün keçirilməsi və bunun perspektivləri haqqında danışırıqsa, onu qeyd edim ki keçirilən görüşlərdə müəyyən razılaşmalar mövcud idi ki, onların həyata keçirilməsi prosesi davam etməlidir".

Politoloqun sözlərinə görə, bura humanitar layihələr, əsirlərin qaytarılması, xalqların sülhə hazırlanması prosesləri və s. məsələlər daxildir: "Lakin görüşlər sonrası Ermənistan Baş nazirinin daxili auditoriyada öz nüfuzunu bərba etmək məqsədilə söylədiyi fikirlər sülh nizamlama prosesinin bünövrəsinə zərər vurur.

Başqa bir məqam da ondan ibarətdir ki, Paşınyan daxili təlatümlərdən çıxış yolu kimi sərhəddə gərginlikdə maraqlıdır və bütün davranışı ilə Azərbaycan tərəfini buna təşviq edir.

**Nəzərə alaq ki, Ermənistan Baş nazirinin belə sərsəmləmələrindən sonra müharibə yeganə çıxış yolu olaraq görsənir.**

Çünki hazırkı Ermənistan hökumətinin yanaşması "biz işğal etmişik və biz haqlıyıq" kimi qəbuledilməz bir tonda səslənir. Odur ki, ölkə rəhbərlərinin görüşlərindən daha çox sərhəddə erməni təxribatının və bir neçə günlük eskalasiyanın şahidi olacağımıza inanıram. Hesab edirəm ki, Paşinyanın Münhendəki açıq məğlubiyyətindən sonra tez bir zamanda təkbətək görüşə maraq göstərəcəyi inandırıcı deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Başçı həbsləri gündəmə iki sual çıxardı - başçıların mütləq YAP üzvlüyü və müttəfiq partiyalardan icra başçılığına təyinatlar...

**Yeni Azərbaycan Partiyasının icra katibinin müavini Siyavuş Novruzov mediaya verdiyi müsahibədə bu günlərdə DTX tərəfindən həbs edilən Neftçalanın icra başçısı və digər şəxslərdən danışıb: "Neftçalanın icra başçısı yeganə icra başçısıdır ki, YAP üzvü deyil.**

Orada saxlanan şəxslərlə bağlı istintaq gedir. İstintaq nəticəsində məlum olub ki, onlar hansı qanunsuz əməlləri törədiblər. Ümumiyyətlə, son dövrlər Prezident İlham Əliyev hər çıxışında bir daha xatırladır ki, məmurların əhali ilə rəftarı dəyişməlidir. Xatırladım ki, korrupsiyaya qarşı elə Ümummilli Lider Heydər Əliyev hələ 1969-cu ildə - Azərbaycan SSRİ-nin tərkibində olduğu zaman ilk dəfə hakimiyyətə gəldiyi gündən mübarizə aparıb və bu gün də həmin siyasət uğurla davam edir. Bütün dünyada olduğu kimi, Azərbaycanda da korrupsiya hər zaman olub. Lakin əsas olan bu ictimai bəla ilə mübarizə aparmaq və siyasi iradə ortaya qoymaqdır. Bu baxımdan, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi var və bu quruma geniş səlahiyyətlər verilib. Bilirsinizmi, vəzifəli şəxsin borcu vətəndaşa xidmət göstərməkdir. Vəzifəli şəxslərin başqa adlar altında vətəndaşlardan rüşvət alması yolverilməz və qəbuledilməzdir. Artıq digərləri də bu məsələlərdən dərs götürməlidirlər".

Siyavuş Novruzovun açıqlamasında diqqətimizi bir məqam çəkdi. O qeyd edir ki, Neftçalanın həbs edilən icra başçısı yeganə rayon rəhbəridir ki, YAP üzvü deyil. Qanunvericiliyə görə, bu mümkündürmü, əgər mümkündürsə, hakimiyyətin kursuna yaxın olan digər siyasi partiyaların üzvlərindən də rayonlara icra başçılarının təyin olunması hansı effekti verə bilər?

***İlqar Hüseynli:** ”Fərqli partiya üzvləri arasından seçilən insanlarla da bağlı belə təyinatları reallaşdırmaq olar”*



Ekspert İlqar Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, Neftçalada həyata keçirilən həbslərdə məsuliyyətə cəlb edilənlərin böyük əksəriyyəti YAP üzvləridir: "Siyavuş Novruzov həmin şəbəkəyə başçılıq edənlərin YAP-çı olmadığını deməklə nəyə işarə etmək istədiyini anlamadım. İcra başçısının YAP-cı olması nadir hallarda baş verir. Belə bir faktın mövcudluğu varsa, bu da maraqlıdır. Qanunvericilik YAP üzvü olmayan şəxsin də icra başçısı təyin edilməsini qadağan etmir. Bu baxımdan da belə bir təcrübəni də sınamaq lazımdır. Çox qeyrətli və mərd, karyerası təmiz, savadlı övladlarımız var. Elələri var ki, YAP-ın üzvü deyil, onların da təcrübəsindən istifadə etməliyik. Fərqli partiya üzvləri arasından seçilən insanlarla da bağlı belə təyinatları reallaşdırmaq olar. Onda ciddi rəqabət yaranar və işin keyfiyyət əmsalı artar. Bu təcrübəni sınamaq indiki məqamda yaxşı olar. Əminəm ki, müsbət effektini görərik".

*Məhəmmədəli* ***QƏRİBLİ***

# ABŞ-ın bir neçə konqresmeni Azərbaycan düşmənçiliyini dayandırmır - Abxaziya, Osetiya və Dnestryanı yox, qondarma "Artsax"a bəli...

**Bir sıra ermənipərəst ABŞ konqresmenləri Dağlıq Qarabağdakı separatçı rejimin dəvətilə 31 martda keçiriləcək "prezident" və "parlament" "seçkiləri"ni müşahidə etmək üçün nümayəndə heyəti ilə gedəcəklərini açıqlayıblar.**

*”Birləşmiş Ştatlar digər separatçı bölgələrə münasibətdə daha konkret mövqe sərgiləyir, Dağlıq Qarabağ məsələsinə gəldikdə isə fərqli yanaşma ortaya qoyur”*

"Əlbəttə, 31 martda "Artsax"da ədalətli seçkilərin keçirilməsini istəyirik. Buna görə də öz əməkdaşlarımı prosesi izləmək üçün oraya göndərməyə qərar verdim" - deyən konqresmen Ceki Kançelyan Spiker bildirib ki, Dağlıq Qarabağdakı rejimi tanımayan rəsmi Bakı oradakı bütün "seçkiləri" "işğal olunmuş ərazilərdə siyasi şou" adlandırır.

Ermənipərəst konqresmen həyasızcasına onu da vurğulayıb ki, Azərbaycanın Qarabağın "müstəqilliyini" tanıyıb-tanımamasından asılı olmayaraq, orada həyat inkişaf edəcək: "Qarabağda demokratiyanın davamlı olması çox vacibdir".

Qarabağa getməyə qərar vermiş Konqresin əməkdaşı, digər ermənipərəst konqresmen Frenk Pallonenin baş məsləhətçisi Ceyms Conson isə belə deyib: "Mən araşdırdım və gördüm ki, "Artsax"da əvvəlki seçkilər bütün standartlara görə azad, ədalətli və şəffaf keçirilib. Ümid edirəm ki, indi də onlar azad olacaqlar".

Frank Pallonenin özü isə bunları deyib: "Dünyaya Dağlıq Qarabağda demokratiyanın bərqərar olduğunu göstərmək çox vacibdir. Qeyd etmək istəyirik ki, "Artsax"da azad cəmiyyətin bütün standartlarına cavab verən bir demokratiya var".

Postsovet məkanında digər separatçı bölgələr var. Məsələn, Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgədə neçə ildir separatçı qurumlar fəaliyyət göstərirlər. Ancaq, nədənsə, həmin bölgələrdə "seçkiləri" izləmək konqresmenlərin yadına düşmür. Yalnız Dağlıq Qarabağdakı "seçkilər" onlar üçün maraqlı olur.

***Əli Orucov:** ”Bunun bir adı var, o da ikili standartlardır”*




Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucov bunun səbəbini ABŞ-ın Azərbaycana yönəlik ikili standartları ilə əlaqələndirdi: "Bunun bir adı var, o da ikili standartlardır. Birləşmiş Ştatlar digər separatçı bölgələrə münasibətdə daha konkret mövqe sərgiləyir, Dağlıq Qarabağ məsələsinə gəldikdə isə fərqli yanaşma ortaya qoyur. Hansı ki, bu, beynəlxalq hüquq normalarına ziddir. Belə yanaşma Qarabağ münaqişəsinin tənzimlənməsində Vaşinqtonun ədalətli vasitəçilik siyasətinə kölgə salır.

Konqresmenlərin Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etməsi qanunsuzdur. Niyə konqresmenlər Abxaziya, Cənubi Osetiya və Dnestryanı bölgəyə səfər edib oradakı "seçkiləri" müşahidə edə bilmir, amma Qarabağa gəlirlər? Deməli, erməni lobbisinin maraqları nəzərə alınaraq ikili yanaşma ortaya qoyulur. Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsinin səbəblərindən biri də bununla bağlıdır. Ona görə də konqresmenlərin bu addımı pislənməlidir. Rəsmi şəkildə Azərbaycan buna etiraz edib qarşı tərəfdən izahat tələb etməlidir".

***Vidadi ORDAHALLI***

**Ermənilərin daim başqa ərazilərə iddia etməsi heç kimə sirr deyil. Əvvəl bunlar ictimai institutlar, siyasi partiyalar tərəfindən edilirdisə, hazırda Ermənistanın rəsmi qurumları belə iddiaları etməkdən çəkinmirlər.**

# Zamanında cilovlanmayan erməni irticasının yeni iddiası - "müqəddəs Yerusəlimdə bizə də yer olmalıdır"...



***Hatəm Cabbarlı:** "Əminəm ki, ərazi iddiası irəli sürülən ölkələr Ermənistana lazımi cavabı verəcəklər"*

Ermənistan mediasının məlumatına görə, həmin ölkənin Xarici İşlər naziri Zöhrab Mnatsakanyan Van zəlzələsindən ölənlərlə əlaqədar başsağlığında Türkiyənin adını çəkib, Vanı Ermənistan ərazisi sayıb. Aydındır ki, ermənilər Türkiyə ərazilərinə daim iddialı olublar. Yeni bir iddianı isə İsrailə qarşı qaldırıblar. Z.Mnatsakanyan Slovakiyanın Xarici İşlər naziri ilə bərabər verdiyi mətbuat konfransında İsrailin Yerusəlim şəhərinə iddialı olduqlarını elan edib. Yerusəlimin gələcək statusu ilə bağlı verilən suala Mnatsakanyan belə cavab verib: "Ermənistan Yerusəlimin statusu ətrafında baş verən hadisələri xüsusi diqqətlə izləyir, bu, ermənilərin müqəddəs şəhərdə çoxesrlik mövcudluğu, zəngin erməni tarixi və mədəni irsi, həmçinin, Erməni Apostol Kilsəsinin bu müqəddəs yerlərin kilsələrindən biri olması ilə bağlıdır. Ermənistan hesab edir ki, Yerusəlimin son statusu maraqlı tərəflər arasında aparılan danışıqlar nəticəsində müəyyən edilməlidir və o maraqlı tərəf həm də Ermənistandır".

Erməni şərhçilər isə buna haqq qazandırmağa çalışırlar: "Erməni Məhəlləsi köhnə Yerusəlim şəhərinin dörd ən kiçik məhəllələrindən biridir və köhnə şəhərin bütün ərazisinin 14%-ni təşkil edir. Erməni Patriarxlığı VII əsrdə qurulmuşdur. Yerusəlimdəki Müqəddəs İlahi məbədin idarə edilməsi hüququ Yunan Pravoslav Yerusəlim Patriarxlığına, Erməni Apostol Kilsəsinin Yerusəlim Patriarxlığına və Fransiskanların Katolik ordeninə aiddir.

Yerusəlimin statusu erməni amili nəzərə alınmadan müəyyən edilə bilməz - bu, Ermənistan Xarici İşlər nazirinin cavabında əksini tapıb. Bu mesaj Yaxın Şərqdəki hadisələrin fonunda son dərəcə aktualdır. Xüsusilə ABŞ Konqresi və Suriya parlamenti erməni soyqırımını tanıdıqdan sonra erməni amili bölgədə əsas amilə çevrilməkdədir.

Z.Mnatsakanyanın Van və Yerusəlimlə bağlı istinadları erməni etnosunun sərhədlərini müəyyən edir və indiki formal sərhədlər ermənilər üçün az əhəmiyyət kəsb edir".

Bu cür iddialar İsrail-Ermənistan münasibətlərinə hansı formada təsir edə bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, son illər Ermənistanın xarici siyasətində müəyyən dəyişikliklər müşahidə olunur: "Ermənilər əvvəlki illərdən fərqli olaraq, sadəcə, regiona yönəlik deyil, həm də regiondan kənarda da guya aktiv siyasət həyata keçirməyə çalışırlar. Onların Xarici İşlər naziri Türkiyədə baş verən zəlzələyə maraqlı münasibət bildirib. O, türkiyəlilərə yox, vanlılara xitab edib. Bunun özü diplomatik skandaldır. Onu göstərir ki, Ermənistan hökuməti Türkiyənin torpaq bütövlüyünü tanımır. Ənənəvi olaraq Türkiyənin şərq əyalətlərinə "Böyük Ermənistan"ın bir parçası kimi baxır. Mənə elə gəlir ki, Türkiyəyə yönəlik bu ərazi iddialarına rəsmi Ankara lazımi səviyyədə cavab verməlidir. Bundan başqa, Ermənistan həm də başını Yaxın Şərqdə baş verən hadisələrə də soxmaq istəyir. XİN rəhbəri Qüdsün statusunun müəyyənləşməsində Ermənistanın da söz haqqının olduğunu vurğulayıb. Bunu da onunla əsaslandırırlar ki, oradakı kilsələrdə ermənilər söz sahibidirlər. Belə münasibət İsrailin və Fələstinin daxili işlərinə birbaşa müdaxilədir. Ermənistanın bu təşəbbüsü heç də İsrail və Fələstinin arasında olan münaqişədə barış mövqeyi tutmağa yönəlməyib. Ermənilər orada olan kilsələri vasitəsilə öz mövqelərini möhkəmləndirməyə çalışırlar. Bu tələb İsraillə Ermənistanın münasibətlərinin korlanmasına yol aça biləcək səviyyədədir.

Bu baxımdan da İsrailin məsələyə münasibət bildirəcəyi gözlənir. Ermənistan potensialından çox artıq iddialar ortaya qoyur. Bu siyasətin təməlinin olduqca zəifliyi üzə çıxır. Müşahidə edirik ki, populist iddialar rəsmi şəxs tərəfindən səslənir. Bir çıxışda dünyanın iki böyük ölkəsinə qarşı açıq ərazi iddiası ortaya qoyulur. Əminəm ki, ərazi iddiası irəli sürülən ölkələr Ermənistana lazımi cavabı verəcəklər".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda yayımlanan Rusiya telekanallarına yönəlik tənqidlər artır. Erməni mediası hesab edir ki, sözügedən telekanallar tez-tez "irqçi, dini zorakılıq çağırışları" yayırlar. Ancaq Milli Televiziya və Radio Komissiyasının yol verilən pozuntulara görə cəzalandırma mexanizmi yoxdur.**

# Ermənistanda anti-Rusiya demarşının yeni dalğası - iki fakt - "Planet Rossiya"nın yayımı dayandırılsın və Xocalıda "rus əli"...




***Elşən Manafov:** "Ermənistanın ictimai-siyasi rəyinə ciddi təsir imkanlarına malik olan faktorlardan biri də Rusiyanın bu ölkənin informasiya məkanında tutduğu mövqedir"*

Son günlər erməni mediası Rusiyanın "RTR-Planet" kanalını hədəf alıb. Qeyd olunur ki, Ermənistanda yayımlanan Rusiyanın "RTR-Planet" kanalının informasiya və ictimai-siyasi verilişlərində anti-Avropa yönümlü materiallar daha çox yer alır: "Məsələn, "Vladimir Solovyovla axşam" tok-şousunda insanlar faşizmi Avropa mədəniyyətinin bir hissəsi kimi təmsil etdikləri ilə razılaşırlar. Təqdimatçı nəinki düzgünlüyə çağırış etməyə çalışmır, eyni zamanda, eyni mövzuda manipulyasiyalara müraciət edir. Beləliklə, faşizm və qırğınlardan danışan Solovyov günahı bütün Avropaya çatdırır".

Erməni mediası yazır ki, sözügedən kanalın pulsuz olaraq bütün ölkə ərazisində yayımlanması doğru deyil. Əhali rus kanallarının təsiri altına düşür. Ona görə də sözügedən kanalın yayımı dayandırılmalıdır: "Niyə erməni izləyicisi rus telekanalları tərəfindən müxtəlif təhqirlərin qurbanına çevrilməlidir?".

Bundan başqa, Münhendən qayıtdıqdan sonra Paşinyan Xocalı soyqırımına görə məsuliyyəti Rusiyanın üzərinə atıb. O bununla bağlı status yazıb: "Fakt fakt olaraq qalır: Xocalıda azərbaycanlıların qırğınının Azərbaycandakı ermənilərlə ortaq heç nəyi yoxdur, bunu Rusiyanın 366-cı alayı edib. Bu faciədə bizim günahımız yoxdur". Bundan təxminən bir neçə dəqiqə sonra isə Paşinyan ciddi siyasi səhvə yol verdiyini anlayıb və paylaşımını silib. Əvəzində isə bu sözləri saxlayıb: "Fakt fakt olaraq qalır".

Göründüyü kimi, Ermənistanda anti-Rusiya fəaliyyəti yenidən özünü göstərməkdədir.

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, Ermənistanda yenidən anti-Rusiya dalğasının qabarmasının kökündə bir sıra faktorlar dayanır: "Məsələ ondadır ki, getdikcə Cənubi Qafqazda geosiyasi nüfuz uğrunda mübarizə güclənir. Paşinyanın Qərbin dəstəyilə hakimiyyətə gəlməsi heç kəsdə şübhə doğurmur. Sadəcə olaraq, Paşinyan bu adan təminat almaq istəyir. Təbii ki, bu da Qərbi qane etmir. Ona görə də Paşinyan manevr etmək məcburiyyətindədir. Paşinyan ictimai rəyə və onun hakimiyyət başına gəlməsindən sonra...

*"Bu səbəbdən rus telekanallarına qarşı qaralama kampaniyası aparılır"*

müddət ərzində Rusiyanın bölgədə və konkret olaraq Ermənistanın özündə ciddi təsir imkanlarını nəzərə almaq məcburiyyətində idi. Çünki Rusiyanın Ermənistanda hərbi mövcudluğu var. Bundan başqa, Rusiya ölkənin enerji sektoruna təsir imkanlarına malikdir. Maraqlıdır ki, Paşinyan Qərbə boylanıb maliyyə kreditləri almaq şərtilə Ermənistan dövlətinin təhlükəsizliyi ilə bağlı məsələlərdə Rusiyasində maraqlı olan qüvvələrə bu cür mesajlar verir. Yəni Ermənistanın ictimai-siyasi rəyinə ciddi təsir imkanlarına malik olan faktorlardan biri də Rusiyanın bu ölkənin informasiya məkanında tutduğu mövqedir. Təbii ki, bu, az əhəmiyyətli faktor deyil. Ona görə də Ermənistandakı Rusiya kanalları qaralanır. Paşinyan Baş nazir olandan sonra Ermənistanın təhsil müəssisələrində belə rus dilinin tədrisinə heç bir ehtiyacın olmaması ilə bağlı fikirlər səsləndirdi. Bütün bunlar təsadüfi deyil. Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmaqdan ötrü sözügedən telekanalların yayımının məhdudlaşdırılması ortaya atılır. Bu yolla Gürcüstandan sonra Ermənistanda Qərb öz istədiyi layihəni başa çatdırmaq istəyir. Burada problem ondan ibarətdir ki, Ermənistan özü kifayət qədər mürəkkəb geosiyasi bir bölgədə yerləşir. Məsələ ondadır ki, ABŞ-ın bölgə ilə bağlı siyasətini həzm etməyən İran, Rusiya faktoru var. O üzdən, Ermənistan hakimiyyəti istədiyini həyata keçirə bilmir. Nəzərə almaq lazımdır ki, Paşinyan separatçı qurumda keçiriləcək "seçkilərdə" öz nümayəndəsini seçdirmək istəyir. Bütün bunların üstünə düşməsi Paşinyanı manevr etməyə məcbur edir".

***Vidadi ORDAHALLI***

**Son günlərdə cəbhə zonasında atəşkəsin pozulmasının yenidən intensivləşməsi müşahidə olunmaqdadır. Bütün bunların məlum Münhen debatından sonraya təsadüf etməsi də diqqətdən yayınmır. Daha bir məqam isə atəşkəsin Ermənistan-Azərbaycan sərhədində daha çox pozulmasıdır.**

# Ermənilər ötən ilin yayında Qazax və Ağstafa istiqamətlərində mövqe itkiləri ilə barışa bilmir...

Xatırladaq ki, elə bu günlərdə Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədindəki təmas xəttində atəşkəs rejimini kobud şəkildə pozmaqla növbəti dəfə təxribat törədib. Belə ki, fevralın 24-də Ermənistan silahlı qüvvələrinin Noyemberyan rayonunun Koti kəndi yaxınlığında yerləşən bölmələrindən Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətindəki sərhəd döyüş məntəqəsinə diversiya cəhdinin qarşısı alınıb, ciddi itkilər verməyə məcbur olmuş düşmənin bir zabiti ağır yaralanıb, digər hərbi qulluqçusu öldürülüb. Düşmənin diversiya qrupunun qumbaraatan və digər iriçaplı silahların tətbiqi ilə baş verən təxribatının qarşısı alınarkən sərhədçi əsgər Vəliyev İbrahim Ələmşah oğlu qəhrəmancasına şəhid olub. Qeyd edək ki, Ermənistanla dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsindəki döyüş postlarının və müvafiq hərbi obyektlərin Dövlət Sərhəd Xidməti tərəfindən təhvil alınmasından sonra düşmən bu istiqamətdə dəfələrlə təxribat törətməyə can atıb. Hər dəfə də layiqli cavabını alıb. O da məlumdur ki, azərbaycanlı sərhədçilər Azərbaycan-Ermənistan sərhədində bir sıra strateji yüksəklikləri tutublar. Həmçinin mövqelərimizin irəli çəkilməsi təmin edilib. Bununla da Ermənistan Silahlı Qüvvələrinin döyüş postlarına və postlara gedən yollara nəzarət etmək üçün optimal şərait yaranıb. Bununla belə, qeyd olunan istiqamətdə düşmən təxribatları da səngimir. Hərbi ekspert, Dövlət Sərhəd Xidmətinin ehtiyatda olan zabiti, polkovnik Afəq Abiyev qarşıdakı dövrlərdə erməni təxribatlarının davam etmə ehtimalları barədə qeyd edir: "Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax və Ağstafa rayonları istiqamətində DSX Sərhəd Qoşunları tərəfindən mühafizəyə götürülməsi və orada bir il ərzində yaradılan hərbi infrastruktur, şübhəsiz ki, düşməni razı sala bilməz. Düşmən tərəfinin diversiya-təxribat cəhdlərinin iki məqsədi var. Birincisi, Azərbaycan tərəfinin yaratdığı güclü müdafiə infrastrukturuna nüfuz etdiyinə öz ictimaiyyətini inandırmaqdır. İkincisi isə Azərbaycan tərəfinə psixoloji təsiri artırmaqdır. Onu deyə bilərəm ki, bu gün bizim qurduğumuz müdafiə infrastrukturuna düşmən tərəfinin nüfuz etməsi fiziki cəhətdən mümkün deyil. İndiyədək düşmənin etdiyi bütün cəhdlərin nəticəsiz qalması bunu deməyə əsas verir. Təbii ki, bu təxribatlar zamanı şəhid vermişik. Düşmən də hər cəhdində ağır itkilərə uğradılır. Sərhədin müdafiəsi zabitindən əsgərinədək hər kəsdən sayıqlıq tələb edir. Qazax istiqamətində sərhəd mühafizəsi respublikamızın İran, Rusiya, Gürcüstanla olan sərhəd mühafizəsindən tam fərqlənir. Bu gün orada həm sərhədin mühafizəsi, həm də müdafiəsi təşkil olunur. Ermənilər təxribat cəhdləri ilə qeyd olunan istiqamətdə mühəndis-istehkam fəaliyyətlərimizə mane olmağa çalışırlar".




Dövlət sərhədində Qazaxa niyə həmişə erməni tərəfinin prioritet istiqamət kimi baxmasına gəlincə, ekspert "azeri defence" portalına bildirib: " Bunun əsas səbəblərindən biri ölkənin əsas kommunikasiyalarının - avtomobil magistralının, dəmir yolunun, əsas ixrac boru kəmərlərinin yaxın ərazidən keçməsidir. Babakər yüksəkliyi ilə "Qırmızı körpü" sərhəd-keçid məntəqəsinin arasındakı məsafə cəmi 2 kilometrdir. Eləcə də Ermənistanın da əsas kommunikasiyaları - Gürcüstan-Ermənistan qaz kəməri, qazpaylayıcı stansiya, Sadaxlı-Noyemberyan magistral yolu Azərbaycan üçün əsas hədəflərdəndir. Adını çəkdiyim bu kommunikasiyalar erməni tərəfi üçün çox əhəmiyyətli marşrut sayılır. Təxribatlarda, şübhəsiz ki, bu faktorlar da mühüm rol oynayır. Çünki qarşı tərəf 2019-cu ilin yayında qeyd olunan istiqamətdə itirdiyi mövqe üstünlüyü ilə barışmaq istəmir". Rus hərbi ekspert Aleksey Xlopotov isə bildirir ki, sərhəd rejiminin qurulması üzrə işlərin aparılmasının yüksək risqli və təhlükəli olmasına rəğmən, belə şəraitdə peşəkarlar, yəni sərhədçilər sərhədin qorunması ilə məşğul olmalıdır:"Bu, potensial olaraq sərhəd xəttində gərginliyi azaltmalıdır. Ordu isə öz işi ilə məşğul olmalıdır, döyüş hazırlığını artırmalı və sərhədçilər üçün dayaq, etibarlı arxa cəbhə rolunu oynamalıdır".

A.Xlopotov qeyd edib ki, Azərbaycanın öz Silahlı Qüvvələrini və Sərhəd Xidmətini təkmilləşdirmək üçün addımlar atmasına baxmayaraq, Bakı işğal faktoruna görə Ermənistan və İranla dövlət sərhədinin böyük sahələrinə nəzarət etmək iqtidarında deyil:**"Əfsus ki, dövlət sərhədinin qorunması mexanizmlərinin təkmilləşdirilməsinə rəğmən, rəsmi Bakının Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinə və Azərbaycan-Ermənistan dövlət sərhədinin 435 kilometrlik hissəsinə nəzarət etmək imkanı yoxdur. Sözügedən sahələr Ermənistanın işğalı altındadır. Söhbət beynəlxalq səviyyədə tanınmış Azərbaycan sərhədindən gedir. Ermənistanı əzəli Azərbaycan ərazilərinin işğalını dayandırmağa məcbur etmək və Azərbaycanın Dağlıq Qarabağ regionunda yaradılmış separatçı rejimi ləğv etmək məsələsində dünya ictimaiyyətinin, o cümlədən BMT-nin daha fəal iştirakı lazımdır".**

***Nahid SALAYEV***



# Paşinyanın Qarabağ avantüralarının iki neqativ nəticəsi barədə Ermənistanda rəy - "özümüzə ziyan dəyir", "Azərbaycan legitim müharibəyə əsaslar qazanır"...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli istiqamətində mövcud Ermənistan hakimiyyəti, belə görünür ki, hansısa real addımlar atmaq niyyətində deyil. Bunu Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağa dair bir-birinin ardınca verdiyi son avantürist bəyanatları da təsdiq edir.**

O, Münhendən qayıtdıqdan sonra Ermənistanın İctimai televiziyasına müsahibəsində, ardınca işğal edilmiş ərazilərdə olarkən verdiyi açıqlamalarda zəbt olunmuş torpaqların dinc yolla Azərbaycana qaytarılmasını istisna edib. Təbii ki, Paşinyanın belə sərsəmləmələri konfliktin hərbi həllini qaçılmaz edir.

Maraqlıdır ki, işğalçı Ermənistanın özündə belə hadisələrin Paşinyan üzündən hərbi müstəviyə yönəlmə ehtimalının artmasından artıq ciddi narahatlıq ifadə olunur. Məsələn, erməni politoloq Qrant Məlik-Şahnazaryan vurğulayır ki, Paşinyan indiki Qarabağ mövqeyi ilə ölkəni sonu dəqiq bilinməyən fəlakətli bir savaşa sürükləyir:"Əslində ən böyük problem budur ki, Nikol Paşinyan bütün mövcud formatları rədd etmək və danışıqlar prosesini yenidən başlamaq barədə danışır. O, İctimai Televiziyaya müsahibəsində məhz bu barədə danışırdı. Erməni tərəfi əslində mövcud danışıq variantları və mexanizmlərindən imtina etdikdə bir sıra fərqli suallar ortaya çıxır və burada təhlükəsizliyə bənzəyən formatlar sadəcə mənasız olur". Onun sözlərinə görə, Ermənistan Azərbayacana müharibəyə başlamaq üçün fürsət verir:"Bu cür yolla rəsmi İrəvan Azərbaycana müharibəyə başlamaq üçün legitim fürsət verir və həmçinin vasitəçilərə də diplomatik yolla buna mane olmamaq üçün fürsət verir. Münhendən sonra biz müharibəyə bir addım da yaxınlaşdıq". Ermənistanın "Politekonomia" araşdırma mərkəzinin rəhbəri, politoloq Andranik Tevanyan da məsələyə eyni prizmadan yanaşır. Tevanyan vurğulayır ki, Paşinyan Münhendə baş verənləri düzəltməyə çalışır, lakin bunu boş yerə edir. Çünki o, Azərbaycan rəhbəri qarşısında biabırçı bir məğlubiyyətə düçar olub və bunu düzəltməsi qeyri-mümkündür. O qeyd edib ki, Paşinyanın yeganə strategiyası qərar qəbul etmək məsuliyyətindən yayınmaq, baxış təqdim etməmək, mücərrəd fikirlər bildirmək və məsələni başqa şeylərin üzərində çətinləşdirmək olaraq qalır: "Azərbaycan və vasitəçilər Paşinyanın uydurduğu Münhen prinsiplərini qəbul ediblər? Bu istiqamətdə hansı addımlar var? Qarabağın danışıqlar masası ətrafında əyləşməsi siyasəti niyə Qarabağın azərbaycanlı icması amilinin güclənməsi və onun subyektivliyinin təmin edilməsinə gətirib çıxarıb? "Təhlükəsizlik qarşısında ərazilər" formatı Paşinyan üçün məqbuldur? O bunu danışır, yoxsa baş bir şey? Məmmədyarov-Mnatsakanyan danışıq formatında qaçqınların qaytarılması məsələsi müzakirə olunub? Münhen prinsiplərində niyə Vyana, Sankt-Peterburq və Cenevrədə əldə olunmuş razılaşmaların nöqtəsi itirilir? Paşinyan bu suallara cavab vermək əvəzinə, heç kimin qəbul etmədiyi mövqe sərgiləyir. Bu isə Azərbaycanın lehinə işləyir və savaşın başlanmasına münbit zəmin yaradır".

Daha bir erməni politoloq Haqik Ambaryan isə bildirir ki, Münhen məğlubiyyəti hələ Paşinyanı çox ağrıdacaq:"Bu cür formatda Əliyev-Paşinyan müzakirəsinin olacağını öyrənəndə düşündüm ki, cənab Paşinyan bu görüşə çox yaxşı hazırlaşacaq, lakin debatdan bir neçə dəqiqə sonra məyus oldum. Paşinyan Münhen məğlubiyyətini arxa plana atmaq üçün indi müxtəlif fikirlər səsləndirir. Amma bu fikirlər Ermənistanı yeni bir savaşa sürükləyir. Təəssüf ki, biz həmin savaşa hazır deyilik". Şirak Dövlət Universitetinin müəllimi Artur Hambardzumyan hesab edir ki, Paşinyan Münhen debatında cavablardan yayınmağa çalışırdı: "Nikol Paşinyan durmadan konkret cavablardan yayınmağa çalışırdı. Mənim üçün olduqca xoşagəlməz idi, Azərbaycan nümayəndəsi öz emosiyalarını nümayiş etdirirdi. Üstünlük Azərbaycan tərəfdə oldu. İndi bundan sonra Paşinyanın səsləndirdiyi fikirlər vəziyyəti düzəltmək əvəzinə yeni savaşa təkan verir. Özü də o vaxt ki, bizdə ordu ilə bağlı böyük probemlər var. Ermənistan ordusunda son zamanlar baş verən ölüm hadisələri bunu aydın göstərir. Özü də məndə bununla bağlı bəzi məlumatlar var. Mən bəzi insanlarla danışmışam, lakin məndə məlumat var ki, problem zabit heyəti və əsgərlərdədir. İnqilabdan sonra müddətli əsgərlərə ciddi imkanlar verilib ki, bu da baş vermiş hadisələrin problemidir. Orduda olan yüngül hadisələr artıq zabit heyəti tərəfindən həll edilmir, bu da ciddi nəticələrə səbəb olur. İndi orduda böyük problemlər olduğu bir dönəmdə Qarabağ savaşının yenilənməsi ciddi təhdid kimi qəbul olunmalıdır. Baş nazirin belə həssas məqamlara diqqət yetirməsi, dediklərindən öncə bunları fikirləşməsi çox vacibdir".

İşğal edilmiş ərazilərdə yaradılan qondarma qurumun "təhlükəsizlik şurasının keçmiş katibi" Vitali Balasanyan da qeyd edib ki, Ermənistan hakimiyyəti son 2 ildə danışıqlar prosesində uğursuz olub: "Son 2 ildə Ermənistanın siyasi hakimiyyəti Nikol Paşinyanın timsalında Qarabağ məsələsi danışıqlarında uğursuz olub. Bu gün çoxları Azərbaycanın ərazi bütövlüyü barəsində danışır, BMT tribunasından da dövlətlərin ərazi bütövlüyü haqqında danışırlar, Minsk Qrupu da ərazi bütövlüyünün vacibliyini dilə gətirir". Balasanyanın sözlərinə görə, Ermənistanın hazırkı hakimiyyəti Sankt-Peterburq və Vyana razılaşmalarını heç nəyə çevirib:"Ermənistanın keçmiş hakimiyyətinin Dağlıq Qarabağ məsələsi ilə bağlı mirası Sankt-Peterburq, Vyana razılaşmaları idi, hazırkı hakimiyyət onları heç nəyə çevirdi. Belə vəziyyətdə Azərbaycan mütləq savaşa başlayacaq. Yəqin ki, Paşinyan da elə o vaxt ağıllanacaq".

Erməni general-leytenant Norat Ter-Qriqoryants isə qeyd edir ki, indiki vəziyyətində Ermənistan ordusu Azərbaycan qarşısında tab gətirmək gücündə deyil. O, Ermənistan ordusunda baş vermiş son ölüm hadisələrinin də bunu təsdiq etdiyini bildirir, silahlı qüvvələrdə mövcud durumu fövqəladə vəziyyət hesab edir:"Zabitlərdən, komandirlərdən, çavuşlardan tutmuş müdafiə nazirinə qədər hamı buna görə cavab verməlidir. Bu biabırçılığa görə hər kəs məsuliyyətə cəlb olunmalıdır. Bu rüsvayçılıqdır. Bu yolverilməz və fövqəladə vəziyyətdir. İnternetdə nə baş verdiyini görmüsünüz? Bütün dünya KİV-i yazır ki, Ermənistan ordusu parçalanır. Bəs bu vəziyyətdə biz Qarabağda yeni savaş halında güclənən Azərbaycan qarşısında necə duruş gətirə biləcəyik? Paşinyan iqtidarı, yaxşı olardı ki, bu barədə fikirləşsin". Digər ekspertlər də bildirir ki, Azərbaycanın iqtisadi cəhətdən qüdrətlənməsi, hərbi büdcəsinin əhəmiyyətli dərəcədə artması fonunda danışıqlar prosesində razılığın əldə olunmaması yalnız Ermənistanın özü üçün böyük problemlər deməkdir. Çünki Azərbaycanın qüdrəti qarşısında işğalçı Ermənistan son dərəcə dərin sosial-iqtisadi böhran keçirir. Bölgədə gerçəkləşdirilən bütün qlobal layihələrdən kənarda qalan Ermənistan əhalisinin durumunun bundan sonra da müsbətə doğru dəyişəcəyinə heç bir ümid yoxdur. Məhz bu durumda Paşinyan iqtidarı Azərbaycanla razılaşmaqdan başqa çıxış yolu olmadığını yaxşı başa düşür. Amma buna rəğmən, danışıqlara xələl gətirən mövqe sərgiləyir ki, bu da savaşı qaçılmaz hala gətirir. Azərbaycan hələlik bəyan edir ki, Qarabağ münaqişəsinin son nəticədə danışıqlar masası arxasında sülh yolu ilə həllini tapmasında maraqlıdır. Ancaq Bakı onu da bəyan edir ki, danışıq prosesi müddətsiz, nəticəsiz ola bilməz. Azərbaycan dövləti konstruktiv danışıqlar ruhuna sadiq olmaqla yanaşı, münaqişənin istənilən vaxt beynəlxalq hüquq çərçivəsində güc yolu ilə həllinə qadirdir. Ekspertlər bu fonda dliqqəti həm də ona yönəldir ki, Azərbaycanın mövqeyi beynəlxalq hüquq normalarına uyğundur və beynəlxalq birlik tərəfindən müdafiə olunur. Amma bunların heç biri Ermənistan tərəfində yoxdur. Buna görə də Ermənistan özünün sonrakı addımlarını düşünməli, əks halda hansı ağır nəticələrlə üzləşəcəyinə qatlaşmalıdır. Burada Paşinyan hakimiyyəti tərəfindən indi o da aydın sezilir ki, Ermənistanın danışıqlardan qaçması onu iqtisadi cəhətdən daha sürətlə zəiflədir. Çünki bu halda artan savaş ehtimalı fonunda Ermənistanla heç kim iqtisadi əlaqələr qurmaq istəmir. Bu durumda əhali kütləvi şəkildə ölkəni tərk edir və ölkə ən əsas kapital olan insan kapitalından məhrum olur. Belə vəziyyətdə Ermənistan nəinki işğal edilmiş əraziləri, hətta öz ərazisini normal şəkildə iqtisadi, maliyyə və insan resursları ilə təmin edə bilmir. Hər halda, danışıqların dalan dirənməsi Ermənistana böyük itkilər hesabına başa gəlir və bunu İrəvanda da görürlər. Belə vəziyyət bir dövlət kimi Ermənistanın məhvini daha da sürətləndirir.

Bundan xilas olmağın yeganə yolu Azərbaycanla razılığa gəlib əməli addımlar atmaqdır. Eləcə də Ermənistanın özündə belə bir fikir də getdikcə daha çox hakim olmağa başlayır ki, Nikol Paşinyan iqtidarının Qarabağ məsələsində dəqiq yanaşmalarının yoxluğu savaşın yenilənməsindən başqa heç nəyə xidmət etmir. Respublika Partiyasının sədr müavini Armen Aşotyan vurğulayır ki, Paşinyanın Qarabağ münaqişəsi ilə bağlı strategiyası yoxdur. Onun sözlərinə görə, Paşinyan Qarabağ məsələsində danışıqlardakı məsuliyyətdən qorxur: "O, ölkə daxilində və xaricində reallıqla əlaqəsini itirib. Bütün bunlar isə Qarabağda yeni savaş üçün əlverişli şərait yaradır". Proseslər göstərir ki, indiki durumda Ermənistan işğalçı siyasəti ilə həm özünün, həm də ümumən bölgənin inkişafı üçün əsas əngəl olaraq qalır. Buna rəğmən, məsələnin dinc həllinə yeni əngəllər yaradılması Ermənistanın yeni savaşa şərait yaratmasından başqa heç nəyə xidmət etmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında necə yaradıldı...

## *Kərim Şükürov: "Azərbaycan xalqına qarşı soyqırımların təşkilatçılığını və yerli türklərin torpaqlarını işğal edərək burada erməni dövləti yaradılmasını da daşnaklar həyata keçirdilər"*

**XX əsrin əvvəllərinə qədər Qafqazda tarixən heç bir dövləti, kiçik çarlığı belə olmayan ermənilərin burada, xüsusən də Azərbaycan torpaqlarında hansı yollarla öz dövlətlərini qurduğu zaman-zaman müzakirə edilir. Gələnən nəticələr onu deməyə əsas verir ki, ermənilərin torpaqlarımızda dövlət qurmalarında onlara böyük dövlətlər, xüsusən də Çar Rusiyası böyük dəstək verib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə öz çıxışlarında XX əsrin əvvəllərində Azərbaycan ərazilərində qurulan saxta erməni dövləti haqqında ifşaedici faktlar səsləndirib. "Bizim tarixi torpaqlarımız Dağlıq Qarabağ və ətraf bölgələrlə məhdudlaşmır. O qədər də uzaq olmayan tarixə, XIX əsrin statistikasına baxsaq görərik ki, azərbaycanlıların yaşadıqları ərazi çox böyük olmuşdur. İndiki Ermənistan, əslində, Azərbaycanın tarixi torpağıdır. Ona görə, gələcəkdə biz bütün tarixi torpaqlara qayıdacağıq. Bunu gənclər də, uşaqlar da bilsinlər. Biz bu amalla yaşamalıyıq, yaşayırıq, yaşayacağıq" - deyə Prezident İlham Əliyev bu fikirləri qeyd edib.

Azərbaycan torpaqlarında qurulan, yaradılan saxta erməni dövləti haqqında tarix üzrə elmlər doktoru, professor, Dövlət mükafatı laureatı Kərim Şükürov çox maraqlı, detallı araşdırmalar meydana çıxarıb.

K.Şükürov bildirir ki, ermənilərin Cənibi Qafqazda kök salmasına şərait yaradan amillər, dövlətlər olub. O qeyd edir ki, Çar Rusiyasının həyata keçirdiyi məkrli siyasət ermənilərə əl-qol açmaq imkanı yaradıb. "Rusiya imperatoru I Aleksandr 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest verdi. 1783-cü il Georgiyevsk müqaviləsindən fərqli olaraq, bu manifest Rusiyanın iddiasının daha böyük olduğunu göstərirdi. Vaxtilə erməni-gürcü federativ dövlətindən bəhs edən ermənilər gürcü çarlığını ləğv edən imperator manifestini sevinclə qarşıladılar. Artıq bölgəyə daxil olan Rusiyanın ermənilərə də münasibəti birmənalı deyildi. Buna baxmayaraq, ermənilər Rusiyanın Azərbaycan xanlıqları, Qacarlar (1804-1813) və Osmanlı dövləti ilə (1806-1812) müharibələrindən maksimum yararlanmağa çalışırdılar. Bu mərhələdə onlar istədiklərinə nail ola bilmədilər.

1804 və 1808-ci illərdə rus qoşunlarının İrəvana yürüşü uğursuz oldu. 1805-ci il mayın 14-də Qarabağ xanlığı ilə bağlanan müqavilə nəticəsində məlikliklərə dair planlar boşa çıxdı. Belə bir vəziyyət erməniləri təmin etmədiyindən, siyasi varlıqlarını ortaya qoymaq üçün Rusiyanın Qacarlar və Osmanlı dövləti ilə münasibətlərinin kəskinləşməsi və yeni müharibələrin (1826-1828, 1828-1829) başlanmasında müəyyən rol oynadılar. Qarabağ məlikliklərinə olan ümidlər puça çıxdığına görə İrəvan xanlığının işğalının həyata keçirilməsi ətrafında oyunlar başlandı. Erməni ənənəsinə uyğun olaraq, erməni dövləti üçün IV əsrdə yaradılan konsepsiya bu dəfə də Qarabağ məlikliklərı üçün uydurulmağa başladı. Raffi ləqəbli Akop Məlik-Akopyan (1835-1888) 1880-ci illərin əvvəllərində sonralar ermənilər tərəfindən dəfələrlə çap olunan "Xəmsə məliklikləri" adlı kitab yazdı. Bu dəfə də məlikliklərin süqutunda xəyanətə xüsusi yer ayrıldı və xəyanətkarlığın əsas simvolu Vərəndə məliyi Məlik Şahnəzər oldu".

"Ermənilərin Azərbaycan torpaqlarında konsolidasiyası"ndan bəhs edən professor Şükürlü qeyd edir ki, bundan sonra kütləvi köçlər və Erməni vilayətinin yaradılması gündəmə gəlib. K.Şükürov vurğulayır ki, bu dövrdə ermənilərin mövqeyini Lazarev nəslindən olan Xristofor Lazarev və Gürcüstan və İmeretiyada erməni yeparxiyasının rəhbəri, sonralar isə patriarx olan (1842-1857) Nerses Aştaraketski təmsil edirdi. Onun qeyd etdiyinə görə, 1827-ci ildə Benkendorf vasitəsilə Lazarev tərəfindən tərtib edilən "Ermənilər haqqında" məruzə qeydləri çara təqdim edildi. Burada qədim erməni dövlətinin bərpasından, Rusiya tərkibində onun muxtar vəziyyətindən bəhs olunurdu. "1827-ci il oktyabrın 1-də İrəvan işğal edildikdən sonra xanlığın yeni statusu məsələsi yarandı. Rusiyanın yerli hakim dairələri İrəvan xanlığının işğalından sonra onu vilayətə çevirdi, burada müvəqqəti idarə yaradıldı. Beləliklə, ilkin vəziyyətə görə, Rusiyaya müqavimət göstərən və ləğv olunan digər Azərbaycan xanlıqları kimi, İrəvan xanlığında da vilayət quruluşunun təmin edilməsi nəzərdə tutulurdu. Ermənilər isə vəziyyəti öz xeyirlərinə dəyişməyə çalışırdılar. Lazarevin 1827-ci ilin sonlarında tərtib etdiyi "xüsusi layihə"də yenə də muxtar erməni dövlətinin bərpasından bəhs edilirdi.

1828-ci ilin fevralında imzalanan "Türkmənçay" müqaviləsi İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya keçməsini təsdiq etdi. Çar I Nikolay "Türkmənçay" müqaviləsindən qısa bir müddət sonra, martın 21-də İrəvan və Naxçıvan xanlıqları əsasında mərkəzi İrəvan olan Erməni vilayəti yaratdı və onu çar tituluna daxil etdi. Belə bir fərmanın meydana gəlməsini təsadüfi hesab etmək olmaz. Ermənilərin burada ciddi təsiri ilə yanaşı, Rusiya imperiyası Osmanlı və Qacarlar ilə sərhəddə özünə etibarlı dayaq yaratmaq istəyirdi.

Beləliklə, ermənilər Erməni vilayəti kimi siyasi status aldılar. Vilayət idarəsində təmsil olunan Aştaraketski bundan istifadə edərək müsəlmanların sıxışdırılması ilə ermənilərin mövqeyini daha da möhkəmləndirməyə çalışırdı. Bununla, eyni zamanda, vilayətin erməniləşdirilməsi istiqamətində də işlər genişləndirildi. Ermənilərin kütləvi şəkildə işğal edilmiş Azərbaycan ərazilərinə köçürülməsi "Türkmənçay" və "Ədirnə" müqavilələrində rəsmiləşdirilsə də, onların bundan məharətlə istifadə etməsi xüsusi qeyd edilməlidir. Bu şərtlər daxilində İran və Osmanlı dövlətindən köçürülmüş 130 mindən çox erməni keçmiş İrəvan, Qarabağ, Naxçıvan və digər xanlıqların ərazisində yerləşdirildi. Ermənilər "siyasi status"la birlikdə, demoqrafik yüksəliş də əldə etdilər. Bütün bunlarla bərabər, Erməni vilayətinin təcrübəsi göstərdi ki, ermənilər kilsə, ticarət və siyasi intriqalarda nə qədər çevik olsalar da, dövlətçilik sahəsində o dərəcədə naşı olaraq qalırlar. Çar I Nikolay 1837-ci il Qafqaz səfəri zamanı Erməni vilayətini yaratmaqla ermənilərə nə dərəcədə önəm verdiyini də göstərmək istəyirdi. Onun burada qarşılaşdığı mənzərə isə hökmdarı özündən çıxardı. Erməni vilayətinə dair həmin dövrdə yazılan və çap edilən nəşrlər də vilayətin real vəziyyətini gizlədə bilmirdi. Yarıtmaz fəaliyyətinə görə erməni Bebutov başda olmaqla, vilayət administrasiyası işindən uzaqlaşdırıldı. 1840-cı ildə isə Erməni vilayəti ləğv edildi. Ermənilər siyasi statusdan fərqli olaraq, kilsənin mövqeyini möhkəmləndirməyə nail oldular. 1836-cı ildə erməni-qriqorian kilsəsi haqqında əsasnamə onun hüquqi vəziyyətini stabilləşdirdi. Alban kilsəsi ilə tarixi mübarizə də erməni kilsəsinin xeyrinə həll edildi. Erməni kilsəsinin mərkəzi olan Eçmiədzin Erməni vilayətində də təsirli rola malik oldu. Ermənilər siyasi məsələlərdəki problemlərə baxmayaraq, kilsənin mənafeyinə qarşı yönələn hər hansı bir addımı qəti müqavimətlə qarşıladılar. Bu özünü 1903-cü ildə göstərdi". İrəvanın erməni siyasi mərkəzinə çevrilməsi siyasəti və onun iflası haqqında da danışan K.Şükürov bildirdi ki, ilk vaxtlar İrəvan vilayətinin, sonra isə bütövlükdə, Erməni vilayətinin siyasi mərkəzi kimi İrəvan şəhəri müəyyən edildi. Ehsan xanın siyasəti nəticəsində Naxçıvanda yerli hakimiyyətin möhkəmlənməsi ilə ermənilərin burada fəaliyyətinin aradan qaldırılması onların İrəvan ətrafında siyasi intriqasını daha da gücləndirdi. "Çar hökuməti də İrəvanın Rusiya işğalına qarşı kəskin müqavimətini, onun strateji əhəmiyyətini və ermənilərin işğal prosesindəki rolunu nəzərə alaraq onların vəziyyətini möhkəmləndirməyə çalışdı. Bütün bunlara baxmayaraq Erməni vilayətində olduğu kim, İrəvan şəhərində də ermənilər onlara ayrılan missiyanı yerinə yetirə bilmədilər. Ermənilər daha çox gəlir əldə etmək məqsədilə işğaldan sonra iqtisadi həyatı canlanan Tiflis, Gəncə, Şamaxı, Bakı və digər şəhərlərə meyl edirdilər. İrəvanın vilayətin ləğvindən sonra qəza şəhərinə (1840-1849), sonra isə quberniya şəhərinə çevrilməsi də vəziyyəti dəyişmədi. İrəvan əhalisinə, şəhər həyatının xüsusiyyətlərinə görə Azərbaycan şəhəri kimi varlığını davam etdirməkdə idi".

"Erməni məsələsi" və ermənilərin ondan yararlanmaq cəhdlərindən də danışan görkəmli tarixçi-alim qeyd edir ki, Rusiya 1853-1856-cı illər Krım müharibəsində məğlub olduqdan sonra Osmanlı imperiyasından qisas almaq üçün məqam gözləyirdi. "Belə bir fürsət 1877-ci ildə yetişdi. Rusiya Osmanlı imperiyası ilə 1877-1878-ci illər müharibəsində qələbə qazandı. San-Stefano (19 fevral - 3 mart 1878-ci il) barışığı, sonra isə Berlində sülh müqaviləsi (1-13 iyun 1878-ci il) bağlandı. Bu müqavilə ilə "erməni məsələsi" adlanan siyasət beynəlxalq gündəmə daxil oldu. Bu, mahiyyət etibarilə, böyük dövlətlərin Osmanlı imperiyasının daxili işlərinə qarışmasına əsaslanırdı. Rusiya bununla həm Osmanlı imperiyasını zəiflətmək, həm də Rusiya ermənilərinin diqqətini imperiyadan qonşu dövlətə keçirmək istəyirdi.

Ermənilər də "erməni məsələsi"ndən maksimum yararlanmağa çalışırdılar. Onun əsas istiqamətini Rusiya və Osmanlı ermənilərinin siyasi fəaliyyətinin ilk dəfə olaraq vahid istiqamətdə birləşməsinin baş verməsi təşkil edirdi. Əsas hədəf isə Osmanlı imperiyası idi. Bunun üçün ermənilər siyasi cəhətdən təşkilatlanmağa başladılar. 1887-ci ildə erməni sosial-demokrat partiyası - "Qnçak", 1890-cı ildə isə erməni inqilabi federasiyası - "Daşnaksütyun" meydana gəldi. "Daşnaksütyun" qısa bir zamanda ermənilər arasında möhkəmlənə bildi. Hər bir erməni dini baxımdan qriqorian olmaqla bərabər, siyasi cəhətdən daşnaklaşmağa məhkum edildi. Azərbaycan xalqına qarşı soyqırımların təşkilatçılığını və yerli türklərin torpaqlarını işğal edərək burada erməni dövləti yaradılmasını da daşnaklar həyata keçirdilər.

1890-cı illərdə ermənilər Osmanlı dövlətinə qarşı genişmiqyaslı üsyana qalxdılar. Bu qiyamlar ləğv edildikdən sonra ermənilər siyasi fəaliyyəti Rusiyaya keçirdilər. Daşnaklar tərəfindən yayılan xəritələrdə erməni dövlətinin tərkibinə Osmanlı torpaqları ilə bərabər, Rusiyanın hakimiyyəti altında olan Azərbaycan torpaqları da daxil edilirdi.

Ermənilərin artan imkanlarından narahat olan çar hakimiyyət dairələri onların hüquqlarının məhdudlaşdırılması üçün fəaliyyətə keçdilər. 1903-cü ildə erməni-qriqorian kilsəsinin əmlakının müsadirə edilməsi haqqında fərman verildi. Erməni-qriqorian kilsəsinin rəhbərliyi ilə çar hökumətinə qarşı terror hərəkatı başlandı. Nəticədə hökumət geri çəkilməyə məcbur oldu. Bu hadisələr Rusiyanın tərkibindəki Azərbaycan torpaqlarında dövlət yaratmaq sahəsində imperiyaya keçən təşəbbüsləri ermənilərin yenidən öz əllərinə almasına da təkan verdi.

Ermənilər Azərbaycanın Qarabağ bölgəsində dövlət yaratmaqla itirdikləri ümidlərini geri qaytarmaq və siyasi mərkəz kimi möhkəmlənə bilmədikləri İrəvan və ətrafında mövqelərini gücləndirmək üçün yeni bir vasitəyə - azərbaycanlılara qarşı soyqırımlara əl atdılar. Təsadüfi deyil ki, 1905-1906-cı illərdə tarixə "erməni-müsəlman davası" kimi daxil olan münaqişələrin gedişində ermənilər ən qanlı hadisələri Qarabağ və İrəvanda törətdilər. Erməni kapitalının ən çox mərkəzləşdiyi Bakıda da azərbaycanlılara xüsusi qəddarlıqla divan tutuldu. Çar hökuməti 1903-cü il təcrübəsini nəzərə alaraq bu hadisələrdən erməni-qriqorian kilsəsinə deyil, daşnaklara qarşı istifadəyə üstünlük verdi. Burada daşnakların gənc türklərlə yaxınlaşması da öz təsirini göstərdi. Daşnaklar üzərində 1907-1908 və 1911-ci illərdə məhkəmə quruldu. Rusiya "erməni məsələsi"ndə təşəbbüsə yiyələnmək üçün Osmanlı dövlətinə təzyiqi artırırdı. Nəticədə 1914-cü ilin yanvarında erməni islahatına dair müqavilə imzalandı.

Yaxınlaşan I Dünya Müharibəsi ilə bu müqavilə əhəmiyyətini itirdi. Rusiya siyasi rıçaqlardan ermənilərdən öz siyasəti üçün vasitə kimi istifadəyə keçdi. Ermənilər də müqavilə ilə yaradılmış vəziyyətdən istifadə edərək Osmanlı ərazisində dövlət yaratmaq iddiası ilə ruslarla ittifaqı gücləndirməyə çalışdılar. Bununla da ermənilərin Osmanlı ərazisində dövlət yaratmaq iddiası real şəkildə ortaya çıxdı.

Beləliklə, ermənilərin dövlət yaratmaq iddiasının "Azərbaycan layihəsi" yeni, "Osmanlı layihəsi" ilə əvəz olundu. Onun Rusiyanın bir-birini əvəz edən üç hakimiyyətinə - Çar Rusiyası, Müvəqqəti hökumət və Sovet Rusiyasına uyğun üç variasiyası oldu.

1914-cü il 19 iyulda (1 avqustda) I Dünya Müharibəsi başlandı. Dünya Müharibəsi erməniliyin əsrlərlə formalaşmış mahiyyətini açıb göstərdi, erməni cəmiyyətinin bütün təbəqələrini və onları təmsil edən aktorları hərbi-siyasi meydana çıxardı. İlk dəfə bu sırada yeni bir dəstə - əlinə silah keçən və onu dinc türk-müsəlman əhaliyə qarşı yönəldən, sərkərdə kimi təqdim olunan hərbi güruh (Andronik, Dro və b.) peyda oldu. Rusiya ordusu tərkibinə daxil olan erməni könüllü korpusunun bu hərbi güruhu yerli erməni silahlı qüvvələri ilə birləşib, müharibə qanunlarının ziddinə olaraq, Şərqi Anadolunun türk-müsəlman əhalisini məhv edir, həmin əraziləri etnik təmizləmə yolu ilə erməni dövləti qurmaq üçün hazırlayırdı. Bu hərbi canilər sonra Azərbaycan ərazisində də fəaliyyətlərini davam etdirdilər. Osmanlı hökuməti də hərbi vasitələrlə birgə, müharibə dövrünün tələblərinə uyğun dövlət tədbirləri də həyata keçirirdi. 1915-ci ildə ermənilərin köçürülməsi haqqında qanun qəbul edildi. Hərbi əməliyyatlar və köçürülmə zamanı 500 mindən çox erməni Rusiyanın hakimiyyəti altında olan ərazilərə, o cümələdən, Qərbi Azərbaycan torpaqlarına, İrəvan ətrafına köçdü. Qafqaz cəbhəsindəki uğurlu hərbi əməliyyatlar nəticəsində Osmanlı ərazisinin böyük bir hissəsini ələ keçirən Rusiya burada idarəçiliyin təşkilinə başladı. Bu məqsədlə 1916-cı ilin iyulunda Türkiyədən müharibə hüququ üzrə tutulmuş vilayətlərin idarəsi haqqında müvəqqəti əsasnamə təsdiq olundu. Həmin ərazilərdə Qafqaz administrasiyasına tabe olan general-qubernatorluq yaradıldı. Bununla da ermənilərin bu torpaqlarda Rusiya vasitəsilə dövlət yaratmaq arzuları gözündə qaldı. I Pyotrdan bəri ermənilərin əvvəlcə Azərbaycan torpaqlarında, sonra isə Osmanlı ərazisində dövlət yaradacaqları ilə bağlı çar hökumətinin köməyinə bəslədikləri ümidlər bu dəfə doğrulmadı, 1917-ci ilin fevralında süqut etdi.

Ermənilərin İsrail Ori vasitəsilə çar I Pyotr ilə münasibətlər yaratmasından 200 ildən çox dövr keçsə də, Çar Rusiyası ermənilərin ümidlərini doğrultmadan dağıldı. Buna baxmayaraq, ermənilərin Rusiya oriyentasiyası aktuallığını itirmədi. Rusiyada qurulan sonrakı hökumətlər ermənilərin ümidlərini doğrultmaq üçün daha fəal siyasət yeritməyə başladılar. Müvəqqəti hökumət, ardınca isə sovet hökuməti ermənilərə dəstəyini aydın şəkildə ifadə etdilər" - deyə K.Şükürov bildirir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**1994-cü ilin 10 oktyabr tarixində 74 yaşında müəmmalı şəkildə maşın qəzasında həyatını itirən Fransanın 8 hərbi mükafatı ilə təltif olunan, İkinci Dünya Müharibəsinin iştirakçısı, partizan, Fransa Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən biri, Qarabağ müharibəsi şəhidi, Azərbaycanın Milli Qəhrəmanı Mikayıl Cəbrayılovun atası Əhmədiyyə Cəbrayılov xalqımızın qürur duyduğu qəhrəmandır.**



# Faşist Njdeni qəhrəmanlaşdıranlar, əfsanəvi qəhrəman Əhmədiyyə Cəbrayılovu "Vikipediya"dan sildirənlər...

***Faiq Ələkbərli:*** *"Əhmədiyyə Cəbrayılov haqqında məqalələrin silinməsində kimlərin əli var, burada ermənilər nə dərəcədə rol oynayıb, yoxsa..."*

Lakin Hitler faşizminin qanlı düşməni olan və faşizmlə mübarizədə böyük şücaətlər göstərən Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov haqqında "Vikipediya" açıq ensiklopediyasında yayımlanan məqalələrə "Vikipediya" rəhbərliyinin şübhəli münasibəti bizi narahat etməyə bilmir. Ə.Cəbrayılov haqqında rus və Azərbaycan dillərində "Vikipediya"da möcvud olan məlumatlara belə bir giriş yerləşdirilib: "Bu məqalənin neytrallığı şübhə doğurur. Məqalədə tərəf tutma və ya pisləmək məqsədi daşıyan və doğruluğu sübut edilməyən fikirlər olduğu iddia edilir.

Xahiş olunur bu məsələ ilə əlaqədar müzakirələrdə iştirak edəsiniz. Bu məqalənin bəzi məlumatlarının mənbəyi göstərilməyib.

Daha ətraflı məlumat üçün məqalənin müzakirə səhifəsinə baxa və məqaləyə uyğun formada mənbələr əlavə edib "Vikipediya"nı zənginləşdirə bilərsiniz.

Bu məqalənin sonunda mənbə siyahısı var, ancaq mətndaxili mənbələr heç və ya kifayət qədər istifadə edilmədiyi üçün, bəzi məlumatların mənbəyi bilinmir. Lütfən, mənbələri uyğun şəkildə mətnin daxilində yerləşdirərək məqalənin təkmilləşdirilməsinə kömək edin".

Bu qeyd diqqətimizi xüsusilə çəkdi. Barəsində kifayət qədər zəngin, qürurdoğurucu faktlar olan Ə.Cəbrayılovla bağlı hazırlanan məqalələrə belə münasibətin haradan qaynaqlandığı təəccüb doğurur. Faşizmə qarşı mübarizənin önündə gedən Ə.Cəbrayılov gerçək bir qəhrəmandır, özü də təkcə bizim qəhrəmanımız deyil, Avropanın da qəhrəmanıdır.

Məsələ burasındadır ki, ermənilər faşizmin tərəfdarı, Hitlerin əlaltısı olan Njde və digərlərinə heykəllər ucaltdığı, "Vikipediya" və digər mənbələrdə "zəngin" bioqrafiyalar düzəltdiyi bir halda, Ə.Cəbrayılov kimi qəhrəmanımıza aid məqaləyə "Vikipediya" rəhbərliyi belə mənfi münasibət sərgiləyir. Halbuki, onlar insanlıq, bəşəriyyət düşməni olan erməni şovinistləri, faşizm qulları haqqındakı məqalələrə toxunmurlar, o cür zərərli məqalələrin başqa dillərə tərcümə edilərək yayılmasına şərait yaradılır. Hesab edirəm ki, Azərbaycan vikipediyaçıları Ə.Cəbrayılov haqqındakı məqalələri daha da zənginləşdirəcək və onu mükəmməl şəkildə bir neçə dildə hazırlayaraq yayacaqlar. Bizim üzərimizə düşən vəzifə faşizm düşməni olan qəhrəmanımız haqqında daha səhih məlumatların beynəlxalq ictimaiyyətə çatdırılmasına nail olmaqdır.

AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəsləfə doktoru Faiq Ələkbərlinin sözlərinə görə, faşistlərə əsir düşən azərbaycanlılar arasında Sovet ordusuna qarşı vuruşanlar da olub, sonradan onlardan bəziləri yenidən Sovet ordusuna qayıdıb. "Ola bilsin ki, Əhmədiyyə Cəbrayılovla da bağlı belə bir fakt olub. Hətta belə bir fakt olsa belə, Əhmədiyyə Cəbrayılovu, Mehdi Hüseynzadəni və digər partizanları, Müqavimət Hərəkatı iştirakçılarını hansısa formada ittiham etmək doğru deyil. Çünki, əslində, o vaxt Azərbaycan Sovet İttifaqının tərkibində idi, işğal faktı var idi. Onda II Dünya Müharibəsində iştirak edən və almanların tərəfinə keçən azərbaycanlıların bir qismi hesab edirdi ki, Sovet ordusu ilə döyüşüb Azərbaycanı Sovet işğalından azad edəcək. Yəni bu mümkündür. Ə.Cəbrayılov da Fransa Müqavimət Hərəkatına qoşulmuşdu və 1947-ci ildə ölkəmizə qayıtdıqdan sonra onu "Vətən xainliyində" ittiham etmişdilər. Lakin Şarl de Qol SSRİ-yə gəldikdən və onunla görüşdükdən sonra Ə.Cəbrayılov bəraət almışdı. Yenidən bu məsələni qaldırmaq, "Vikipediya"dan onunla bağlı məlumatların silinməsi düzgün deyil. Ə.Cəbrayılov haqqında məqalələrin silinməsində kimlərin əli var, burada ermənilər nə dərəcədə rol oynayıb, yoxsa beşinci kalonun nümayəndələri bu işi həyata keçirib, bunu birmənalı demək çətindir. Bilirsiniz ki, hələ də Azərbaycanda bəziləri faşistlərin tərəfinə keçib sovetlərə qarşı döyüşənləri "xəyanətkar" hesab edirlər. Bu yanlış düşüncədir".

O hesab edir ki, biz öz qəhrəmanlarımıza münasibətdə hər zaman həssas olmalıyıq və onlara qarşı xoşagəlməz münasibətin qarşısını almalıyıq.

Adı bütün Avropada populyar olan və avropalıların bu gün də sevgi, ehtiramla xatırladıqları, İkinci Dünya Müharibəsi illərində Fransa Müqavimət Hərəkatının iştirakçısı olan, "Armed Mişel", "Ryus Armed", "Xarqo" və başqa adlarla Fransanın azadlığı uğrunda döyüşlərdə iştirak edən Ə.Cəbrayılov 22 sentyabr 1920-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olub. Fransanın azadlığı uğrunda döyüşlərdə iştirak edən Ə.Cəbrayılov Fransanın orden və medalları ilə, o cümlədən, "Hərbi medal"la təltif olunub.

1935-ci ildə Şəkidə Kənd Təsərrüfatı Texnikumunun Zootexnika və aqronomiya fakültəsinə daxil olan Ə.Cəbrayılov 1938-ci ildə buranı aqronomiya ixtisası üzrə bitirir və növbəti illərdə Quba-Qusar-Xaçmaz-Dəvəçi-Yalama rayonları zonasında ipəkçi kimi işləyir. 1940-cı ildə Kommunist Partiyasına daxil olan qəhrəmanımız Sovet ordusunda könüllü olaraq Böyük Vətən Müharibəsinə gedir. Orconikidze diyarının Nevinnomıssk şəhərindəki aviasiya məktəbində hazırlıq keçən həmyerlimiz bir neçə ay davam edən kurslardan sonra kiçik leytenant rütbəsi alaraq Moskva yaxınlığında yerləşən 35-ci divizionun 350-ci bombardmançı eskadriliyasına, texniki xidmət sahəsinə təyin olunur.

1942-ci ilin aprelində Ukraynanın Donbas şəhərinə göndərilir və orada 350-ci alayın siyasi rəhbərinin köməkçisi təyin olunur. Bu alayın tərkibində o, Ukraynanın Barvinki-Lozovaya-İzyum rayonu ətrafındakı döyüşlərdə iştirak edir. Baş leytenant rütbəsi alır.

### Faşist düşərgəsindən qaçışa cəhd…

Ə.Cəbrayılovun həyatında ən məşəqqətli günlər onun faşistlər tərəfindən əsir götürüldüyü vaxtlar olub. Belə ki, 1942-ci ilin aprel və ya may ayında onun təyyarəsi Kursk ətrafında vurulur. Həmin dövrdə 350-ci alay Şimali Donetsk çayının sahilində, İzyum çayının yaxınlığında ağır yaralanır və almanlara əsir düşür, Barvinka və Lvov yaxınlığındakı həbs düşərgələrinə göndərilir. Bir düşərgədən başqa düşərgəyə keçid 3 ay davam edir. Hər gün piyada təxminən 60 km yol qət olunurdu. Ə.Cəbrayılovun Fransada Valleroy kəndində əsir olduğu məkan 1943-cü ildə Daxau həbs düşərgəsinə göndərilir və birinci dəfə qaçmağa cəhd edir. Bıçaqla silahlanaraq özünü sərxoşluğa vurur, gecənin qaranlığından istifadə edərək gözətçiyə yaxınlaşır və boğazını kəsmək istəyir. Cəhd baş tutmur və nəticədə almanlar tərəfindən Fransanın cənubunda, Tuluza şəhəri yaxınlığındakı Montoban həbs düşərgəsinə göndərilir. Burada o, 4167 nömrəli əsir idi. Bu həbsxanada o, vərəm xəstəliyinə tutulur.

### Müqavimət Hərəkatına qoşulma, yaxud tabutda qaçış...

1943-cü ildə həbsxana komendantının qulluqçusu madam Jannanın köməyi ilə fransız vətənpərvərləri almanların diqqətini yayındırmaq üçün tabutda gizlənmiş Əhmədiyyəni xilas edərək Jannanın evindəki zirzəmiyə gətirirlər. Sağaldıqdan sonra Əhmədiyyə faşistlərdən qisas almaq üçün qəti qərara gəlir və özünü buna hazır hesab edir. Fransız dilini öyrənir, madam Jannanın sayəsində onun vətənpərvər dostları və partizan hərəkatları ilə əlaqəyə girir, Müqavimət Hərəkatının kapitan Delplankın (ləqəbi "Düma") rəhbərlik etdiyi Tarn və Qaron departamentlərindəki 4-cü eskadronun üzvü olur. Ə.Cəbrayılovun gizli fəaliyyət ləqəbləri "Xarqo", "Fraji", "Qoçaq", "Ryus Armed" və s. olub. İşğalçı alman hakimiyyət orqanları onun başına 10 min alman markası mükafat təyin edib.

1944-cü il 22 mayda Əhmədiyyəni əvvəlcə Kaberta partizan dəstəsinə, sonra isə kapitan Delplankın komandanlıq etdiyi Düma Gizli Ordusuna keçirirlər, Əhmədiyyə bu dəstənin Tarn və Qaronun azad edilməsi uğrunda apardığı bütün döyüşlərdə iştirak edir. 1944-cü il 19 avqustda Montobanın azad edilməsi və buna qədərki digər əməliyyatlara qatılır.

### Şarl de Qolla birinci görüş...

20 avqustda azad edilmiş Parisdə general Şarl de Qoll Ə.Cəbrayılov ilə görüşür. Bu görüşü fotoşəkil təsdiq edir, həmin dövrdə Fransa müvəqqəti hökumətinin prezidenti olan Şarl de Qollun iştirak etdiyi banketdə Əhmədiyyəni görmək olar. 28 avqustda Əhmədiyyə Montobanda yaradılan 3-cü briqadaya daxil olaraq Vozj və Elzasdakı döyüşlərdə iştirak edir. 1945-ci il 1 martda o, 3-cü briqadanın 4-cü eskadronuna daxil olur. Bir sıra tapşırıqlarla yanaşı, Ə.Cəbrayılov dəmir yol xətlərini partladaraq düşmənin minlərlə fransızı Almaniyadakı həbs düşərgələrində apararaq işlətməsinə mane olub. Həbs düşərgəsinə aparılan 500-ə yaxın fransız uşağı xilas edən zaman yaralanıb və alman zabiti formasında olduğu üçün bir müddət alman hərbi hospitalında müalicə alıb. Müalicəsi bitdikdən sonra Albi şəhərinə hərbi komendant təyin olunur. Bir müddət alman zabiti kimliyində partizanlara çox əhəmiyyətli məlumatlar ötürüb. Daha sonra bütün komendatura zabitlərini əsir götürərək partizanlara təhvil verib. O, körpüləri sıradan çıxarır, alman anbarlarını və faşist zabitlərinin yaşadıqları evləri yandırır. Onun başçılığı altında Lion şəhərinin mərkəzində düşmən tankları yandırılır. Müvəffəqiyyətlə aparılan təhlükəli əməliyyatların müqabilində Fransa Kommunist Partiyasının baş katibi Moris Torez ona tapança bağışlayır.

16 martda o, 3-cü briqadadan tərxis olunur. 1945-ci ilin mayında Birinci Fransız Ordusunun tərkibində yenidən Vozj və Elzasdakı döyüşlərə qatılır.

### Vətənə qayıdış

1946-cı ildə Əhmədiyyə qəti qərara gəlir ki, vətəninə qayıtsın. Fransa onun hərbi şücaətlərini layiqincə qiymətləndirir və o, medal və ordenlərlə, o cümlədən, şəxsi igidliyə görə "Hərbi medal"la (bu medal sıravi əsgərə hərbi paradda generaldan irəlidə addımlamaq hüququ verir) təltif olunur.

25 noyabr 1946-cı ildə Şarl de Qollun köməyilə Əhmədiyyə SSRİ-yə qayıdır. Burada o, vətən xaini kimi qəbul olunur və Moskvadakı yoxlamaların birində onun mükafatlarının bir hissəsi əlindən alınır.

1947-ci ildə Süreyya xanımla ailə qurur, 1948-1962-ci illərdə bu nikahdan 7 uşaq dünyaya gəlir. 1964-cü ildə Kirovabad (indiki Gəncə) Kənd Təsərrüfatı İnstitutunda yarımçıq qalmış təhsilini davam etdirir.

### Şarl de Qollun Moskvaya gəlişi ilə bağlı Ə.Cəbrayılovun adına göndərilən dəvətnamə...

1966-cı ildə Fransa Prezidenti olmuş Şarl de Qoll SSRİ-yə səfəri zamanı Ə.Cəbrayılovu görmək istədiyini bildirib və o, Moskvaya çağırılıb. 1968-ci ildə Sovet hökuməti tərəfindən "vətən xaini" adı onun üstündən götürülür və bəraət verilir. 1970-ci ildə Kənd Təsərrüfatı İnstitutunda təhsilini başa vurduqdan sonra Şəki rayonundakı Nərimanov adına kolxozda baş aqronom işləyir. 1971-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunur.

1986-cı ildə Ə.Cəbrayılov 5 fransız mükafatına layiq görülür - "Müharibə xaçı", "Hərbi şücaət xaçı", "Fransa Müqavimət Hərəkatı" medalı, "İgidliyə görə" medal, "Yaralanmağa görə" medal. 1990-cı ildə Şarl de Qollun anadan olmasının 100 illiyinə həsr olunmuş mərasimlərdə iştirak etmək üçün Parisə dəvət olunur.

1994-cü il 6 yanvarda Front National Milli Hərakat məmuru Rene Rassel Ə.Cəbrayılova Fransa Müqavimət Hərəkatında iştirakını təsdiqləyən sənədi təqdim edir.

***İradə SARIYEVA***

# Azərbaycanda elmi iş rəhbərlərinin çoxuna məxsus ziyanlı nümunə - elmi işləri oxumadan imza atmaq...

**Elm bütün ölkələrdə əsas sahələrdən biri kimi inkişaf etdirilir və elm adamları elmə daha böyük töhfələr verməyə maraq göstərirlər. Elm tutumlu ölkələrdə alimlərin elmə, elm üçün yeni nəsil kadrlar yetişdirməyə tamamilə fərqli yanaşırlar.**

Bizdə isə bu məsələyə yanaşmada xeyli neqativliklər var ki, bu da Sovet dövründən qalan acı mirasdır.

Çağdaş Azərbaycan elminin qarşısında tamamilə yeni şərtlər qoyulsa, elmdən müasir dünyanın çağırışlarına cavab verməsi tələb olunsa da, çox az sayda elmi müəssisələr və çox az sayda elm adamları bu çağırışlara cavab vermək əzmindədir.

Bu gün Azərbaycanda elmi rəhbərlərin öz dissertantlarının yazdıqları elmi işlərə barmaqarası baxması ənənəsi var. Bu ənənəni Sovet dövründən bu günə qədər daşıyan bəzi elmi rəhbərlərin fikrincə, dissertantın yazdığı elmi işi oxumaya da bilər, elmi işin məzmununu bilməsi kifayətdir ki, o buna rəy yazıb müdafiə şurasına təqdim edilməsinə yol açsın.

Müdafiə şuralarında işləyən alimlərin bir neçəsi bizimlə söhbətində bildirib ki, təqdim edilən dissertasiya işlərinin bir hissəsində bəzən Azərbaycan dövlətçiliyinin əleyhinə müəyyən fikirlər olur, dissertasiyada ideoloji səhvlər müşahidə edilir. Alimlərin sözlərinə görə, o halda dissertasiya işləri geri qaytarılır və dissertanta onun üzərində yenidən işləmək, səhvləri düzəltmək tövsiyə olunur. Bu kimi neqativ halların elmi rəhbərlərin dissertasiyalarla tanış olmaması ilə əlaqədar olduğunu deyən alimlər hesab edir ki, elmi rəhbərlərin çoxu "dissertasiyanın həcmi böyükdür, onu oxumaq üçün vaxtım yoxdur" deyirlər. Əlbəttə, elmi rəhbər bir deyil, iki, üç elmi müəssisədə müxtəlif vəzifələr tutduqda, üstəlik də, deputat olduqda onun dissertantla maraqlanmağa vaxtı olmayacaq. Elmi rəhbərlərin bir qismi vəzifə adamları olduqları üçün onların dissertantları ilə əsasən köməkçiləri maraqlanırlar. Ekspertlər qeyd edir ki, Azərbaycanda Sovet dövründə də elmi rəhbər-dissertant münasibətləri əsasən bu cür olub. Dissertant elmi işini oxutmaq üçün bəzən elmi rəhbərin ardınca günlərlə gəzib-dolaşıb ki, bəlkə rəhbərinin dissertasiya ilə tanış olmağa vaxtı oldu. Bir sıra ekspertlər qeyd edir ki, Sovet dövründə istedadlı gənclərin özlərinə başqa SSRİ respublikalarından elmi rəhbər tapması çox vaxt bu amillə əlaqədar olub.





***İdris Abbasov:** "Elmi rəhbərlərin öz dissertantlarının yazdığı dissertasiyanı oxumaması artıq bir ənənə halı alıb"*

***İlqar Orucov:** "Elmi rəhbər dissertantın işinə biganə, səhlənkar yanaşırsa, iddiaçı məsələ qaldırıb onu elmi rəhbərlikdən uzaqlaşdıra bilər"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun Nəzəri Dilçilik Şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İdris Abbasov baki-xeber.com-a bildirdi ki, bu gün həqiqətən də, bir çox elmi rəhbərlər dissertantlarının yazdıqları elmi işə barmaq arası baxır, çox zaman o elmi işləri oxumurlar da. Bəzi elmi rəhbərlərin öz vəzifələrinə, imkanlarına, havadarlarına, elmi titullarına arxayın olub dissertantların dissertasiyalarına biganə yanaşması Azərbaycan elminə böyük zərər vurur. "Bu hadisələr gözümün qarşısında baş verir. Bir çox elmi rəhbərlər heç dissertantla maraqlanmır. Ümumiyyətlə, bəzən elmi rəhbər heç öz dissertantını tanımır. Təəssüf ki, belə hallar da olur. Elmi rəhbərlərin öz dissertantlarının yazdığı dissertasiyanı oxuması artıq bir ənənə halı alıb. Dissertasiyaya rəy verən elmi rəhbərin əsərdən xəbəri olmur. Dissertantın özü öz elmi işinə rəy yazıb gətirir ki, bəzi elmi rəhbərlər isə yalnız rəyə imza atırlar. Hətta rəyə imzanı da minnətlə atanlar var. Təsəvvür edin ki, bu sahədə vəziyyət çox acınacaqlıdır. Vəziyyət düzəlməlidir, bununla bağlı işlər görülməlidir" - deyə İ.Abbasov vurğuladı.

Gənc Alim Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov isə deyilənlərlə razılaşmır. O, hesab edir ki, elmi rəhbərin dissertantın yazdığı elmi işdən xəbərinin olmaması inandırıcı deyil: "Qeyd etmək istəyirəm ki, elmi rəhbərlərin doktorant və dissertantların yazdığı elmi işlərdən xəbərinin olmaması iddiasını mən o qədər də qəbul etmirəm. Çünki bütövlükdə dissertasiya elə bir prosesdir ki, bu bir günün içində başa gəlmir, bunun üçün ən azı üç il doktoranturada oxumaq lazımdır. Bu proses hardasa 3 ilə başa gəlir və burada elmi rəhbər bilavasitə işin içində olan bir adam olur. Elə rəhbərlər var ki, onlar kifayət qədər ciddi vəzifələr daşıyırlar. Tutaq ki, rektordur, digər dövlət işlərində çalışır. Bu halda əlbəttə ki, onların rəhbərlik etdiyi doktorantın, dissertantın (iddiaçının) elmi işlərindən xəbəri olmaya bilir. Amma bütövlükdə isə bu proses nəzarətsiz qalmır və həmin elmi rəhbərin rəhbərliyi altında ikinci elmi rəhbər bu məsələyə qarışır. Bu proses bilavasitə onların iştirakı ilə başa gələn bir proses olur. Ona görə də, "elmi rəhbərin elmi işdən xəbəri yoxdur, onu oxumağa vaxtı yoxdur" iddiaları açığı çox da həqiqəti əks etdirmir. Amma bütövlükdə isə hər zaman onun əksinə olmuşuq ki, ciddi bir vəzifə daşıyan insan elmi rəhbər olsun. Ciddi və məsuliyyətli bir vəzifə daşıyan, həmişə məşğul olan bir insanın elmi rəhbər olması doğru deyil. Əlbəttə, elmi rəhbər o elmi işi yerinə yetirən dissertanta, doktoranta istiqamət verir, bilavasitə o prosesin içində olur, onun gəldiyi nəticələri, yeniliklərini izləyir, dinləyir. Dissertantın bu illər ərzində elmi rəhbərlə birgə elmi məqalələri çap olunur. O elmi məqalələr həmin elmi işi əhatə edən məqalələr olur. Demək istədiyim odur ki, elmi rəhbər bu işdən kənarda qala bilməz. Əlbəttə, elmi işin yerinə yetirilməsini dissertant, doktorant həyata keçirir, amma elmi rəhbər bu işə bilavasitə dəstək verən, onu irəliyə aparan, tövsiyələrini verən, işlə bağlı iradını bildirən və tövsiyələrini verən bir insandır. Əgər bəzi elmi rəhbərlərin dissertanta yanaşmasında neqativ nə isə varsa onun elmi rəhbər kimi fəaliyyət göstərməsi doğru deyil".

İ.Orucov vurğuladı ki, dövlət tərəfindən elmi rəhbərlərə vəsait ayrılır və onlar elmi rəhbər olduqları üçün dövlətdən pul alırlar. Müsahibimizin qeyd etdiyinə görə, bu məsələdə neqativ hallar yolverilməzdir: "Elmi rəhbərlərə dövlət büdcəsindən pul ayrılır və ona görə də onlar öz işlərinə məsuliyyətlə yanaşmalıdır. Amma yenə də deyirəm, mən elmi rəhbərlərin öz dissertantlarının elmi işlərinə biganə yanaşmasının şahidi olmamışam. Amma belə hallar varsa da, düzgün saymıram. Bu halla yox, başqa formada bir halla qarşılaşmışam. Tutaq ki, elmi rəhbərin çox soyuq münasibəti olur, elmi iş götürən dissertanta razılıq verir, sonrakı proseslərdə onu süründürməçiliyə salır, dissertantına vaxt, zaman, ayırmır. Çünki elmi rəhbər əslində məktəb yaratmış, məktəbi olan bir insan olur. Ona elmi rəhbərlik etməsinə icazə verilirsə həmin şəxs öz sahəsində tanınmış mütəxəssis olmalıdır. Amma əgər yenə də deyirəm elmi rəhbər dissertantın işinə biganə, səhlənkar yanaşırsa iddiaçı məsələ qaldırıb onu elmi rəhbərlikdən uzaqlaşdıra bilər".

İ.Orucov vurğuladı ki, humanitar və ictimai elmlər sahəsi daha çox ideoloji sahələr sayılır və o sahələrə diqqət daha çox olmalı, plagiatlıq hallarına yol verilməməlidir. "Aparılan tədqiqatlar yalnız bu günlə səsləşməməlidir, o özündə ciddi faktları, araşdırmaları əhatə etməlidir. Əslində, humanitar və ictimai elmlər sahəsində vəziyyət doğrudan da yaxşı deyil. Ola bilsin ki, o istiqamətdə elmi rəhbərlərin öz doktorant və dissertantlarına qarşı biganə münasibəti olsun. Hesab edirəm ki, bu da doğru yanaşma deyil. Amma magistratura pilləsində həqiqətən də ciddi problemlər var. Çox zaman magistrin yerinə müəllimlər bu işi yerinə yetirirlər, iş yazırlar, ordanburdan köçürürlər. Magistratura pilləsində magistr dissertasiyasının yazılması prosesi çox formal və heç bir aktuallıq kəsb etməyən mövzuları əhatə edir. Bu iş əslində formallığa daha çox meyllidir, nəinki fəlsəfə doktorluğuna iddialı olan iddiaçıların yazdıqları elmi işlər" - deyə İ.Orucov vurğuladı.

***İradə SARIYEVA***

# "Resurs" Analitik İnformasiya Mərkəzi Mənəvi Dəyərlərin Təbliği Fondu ilə Lənkəranda tədbir keçirdi - sağlam qida, sağlam həyat, sağlam millət, sağlam cəmiyyət, sağlam gələcək...

**Hər bir millətin fiziki sağlamlığı, mənəvi və əqli sağlamlığı onun qəbul etdiyi qidalar və milli mətbəxi ilə çox bağlıdır. Xalqımızın tarixən min illər boyu formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını qoruyaraq bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək vətəndaşlıq borcu olaraq hər birimizin əsas vəzifələrimizdən biridir.**

Xüsusilə də gənclərin, ədalət və düzgünlük, humanizm, mərhəmət, xeyriyyəçilik, cəsarət və şücaət, mərdlik, təmizlik, halallıq, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsi mənəvi cəhətdən sağlam və intellekt baxımından yüksək səviyyəli azad cəmiyyətin formalaşmasına xidmət edir.

Zaman keçdikcə milli-mənəvi dəyərlərə münasibətdə də müxtəlif dəyişikliklər, yeni yanaşmalar ortaya çıxır. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirməli, vətəndaşlarımızı, xüsusilə də gənclərimizi daha da vətənpərvər, sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik.





"Resurs" Analitik İnformasiya Mərkəzi yuxarıda qeyd olunanları və ərzaq təhlükəsizliyinin bütün dünya ölkələrinin milli-iqtisadi təhlükəsizlik sisteminin ən mühüm tərkib hissəsi kimi dəyərləndirildiyini, hər bir insanın sağlam və məhsuldar həyat tərzi üçün insan ləyaqətinin başlıca amili, milli təhlükəsizlik konsepsiyasının çox vacib elementlərindən biri olduğunu və bu məsələlərin həmişə aktuallığını nəzərə alaraq, Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə "Sağlam qida, sağlam həyat, sağlam millət, sağlam cəmiyyət, sağlam gələcək" şüarı adı altında "Milli mətbəximizin zənginliyi tariximizdir" adlı növbəti geniş tədbir keçirib. Tədbir azərbaycanımızın cənub bölgəsində yerləşən, özünəməxsus mətbəx zənginliyi, mədəniyyəti ilə seçilən, əsrarəngiz təbiət gözəlliyi ilə göz oxşayan Lənkəran şəhərində, "Xəzər Palac" İstirahət mərkəzində keçirilib.




Qeyd edək ki, ötən tədbir respublikamızın qədim şəhərlərindən biri olan Şəki şəhərində yerləşən "Marxal" İstirahət Kompleksində keçirilmişdi. Burada respublikamızın, eləcə də Şəkinin bir sıra tanınmış ziyalıları, mədəniyyət və incəsənət təşkilatlarının nümayəndələri, sənətkarlar iştirak etmişdi. Bu barədə daha ətraflı məlumatı "Resurs" Analitik İnformasiya Mərkəzinin facebook səhifəsindən, eləcə də TV və digər KİV-də nümayiş olunmuş və dərc olunmuş məlumatlardan əldə edə bilərsiniz.

Fevralın 22-də əvvəlcə tədbir iştirakçıları Lənkəran şəhərində fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, Lənkəran Xan evi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun ev muzeyi ilə yaxından tanış olublar.

Tədbirdə çıxış edən "Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyinin sədri, siyasi ekspert Rasim Quliyev bildirib ki, sağlam qida, sağlam həyat, sağlam millət, sağlam cəmiyyət, sağlam gələcəkmilli təhlükəsizlik konsepsiyasının əsas prioritetlərindən biridir. Hər bir millətin fiziki sağlamlığı, mənəvi və əqli sağlamlığı onun qəbul etdiyi qidalar və milli mətbəxi ilə çox bağlıdır. Milli təhlükəsizlik konsepsiyasının çox vacib elementlərindən biri də təsadüfi deyil ki, qida təhlükəsizliyildir. Qida milli təhlükəsizlik konsepsiyasının əsas prioritetlərindən biridir.

Bu gün bu mövzunun aktuallığını və əhəmiyyətini nəzərə alaraq "Resurs" Analitik İnformasiya Mərkəzi İctimai Birliyi bununla əlaqədar olaraq növbəti dəfə Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə Azərbaycanın qədim şəhərlərindən bir olan Lənkəran şəhərində bu tədbiri keçirir.

Xalqımızım min illər boyu formalaşdırdığı, qoruyub saxladığı milli-mənəvi dəyərləri bu gün də dünya mədəniyyətinə töhfələr verir. Bizim də bu dəyərlərimizi qoruyub saxlamaq inkişaf etdirmək, gələcək nəsillərin fiziki və mənəvi sağlamlığı naminə təbliğ etmək borcumuzdur.

Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu prosesinin getdiyi bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə vətənpərvərlik kimi hisslərin aşılanması xüsusilə aktuallıq kəsb edir.

Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölməsinin müdiri Qağayı Məmmədov çıxış edərək, Azərbaycanın milli-mənəvi dəyərlərinin təbliği ilə bağlı ətraflı məlumat verərək görülən işlərdən danışıblar. "Xocalı Soyqrımı Tanıtma" İctimai Birliyinin sədri, Qarabağ müharıbəsi veteranı, jurnalist Şamil Ələkbərli, Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin rəhbəri Reyhanə Sadıxova, Lənkəran şəhər Mədəniyyət Mərkəzinin rəhbəri Hafiz Mirzə, Lənkəran şəhər Tarix Diyarşünaslıq Muzeyinin rəhbəri Ülviyyə Əliyeva, Gənclərin Respublika bədii yaradıcılıq evinin rəhbəri Səbinə Mirzəbəyeva, "Müasir Azərbaycan Qadını" İctimai Birliyinin sədri Kəmalə xanım Muradlı, "Elin Səsi" Milli Dəyərlərimizə Dəstək" Təşkilatının sədri Elvin Talışınski, istiqlal.az saytının rəhbəri Qadir İbrahimli, vətəninfo.az saytının rəhbəri Nahid Canbaxışlı, Rusiyanın Rostov-Don vilayətində "Xocalı tanıtım" İctimai Birliyinin nümayəndəsi Leyla Əhmədova, Azərbaycan Milli Kulinariya Mərkəzinin direktor müavini Ceyran Əsgərova, "Resurs" Analitik İnformasiya Mərkəzinə xalqımız üçün olduqca vacib, mühüm bir layihə həyata keçirdiyinə görə dərin təşəkkürlərini bildirib və milli-mənəvi dəyərlərimiz barədə ətraflı çıxış ediblər.

**Tədbirdə QHT təşkilatlarının və Kütləvi İnformasiya vasitələrinin nümayəndələri, fəal gənclər və Lənkəran şəhərində fəaliyyət göstərən bir sıra idarə və müəssisələrin rəhbərləri, respublikamızın, eləcə də Lənkəranın bir sıra tanınmış ziyalıları, mədəniyyət və incəsənət təşkilatlarının nümayəndələri, sənətkarlar iştirak edib.**

**Azər ƏLƏŞRƏFOV**
**"Resurs" Analitik İnformasiya Mərkəzi Mətbuat xidmətinin rəhbəri**

# "COVİD-19" neftdən sonra dünya qızıl bazarını da yerindən oynatdı - lakin bahalaşma istiqamətində...

**Dünya iqtisadiyyatına koronavirusun necə təsir göstərəcəyi, ölkələrin bundan hansı təsirlər görəcəyi getdikcə əsas müzakirə predmetlərindən birinə çevrilməkdədir. Artıq fakt budur ki, sözügedən virus dünya iqtisadiyyatını müəyyən qədər yavaşladıb.**

Onun yayılması davam etsə, qlobal iqtisadiyyatın bundan əhəmiyyətli dərəcədə ciddi zərər görəcəyi də qaçılmaz sayılır.

Digər tərəfdən, koronavirus artıq bir çox strateji məhsulların qiymətini aşağı salır və bura daxil olanlardan biri də neftdir. Məhz koronavirus üzündən neft dəyərdən düşür və bu, hasilatçı ölkələrə tədricən təsir etməyə başlayır. Bir çox transmilli şirkətlərin səhmlərinin də dəyərdən düşməsi elə koronavirusun təsiridir. Yaranmış vəziyyətdə koronavirusun daha da geniş miqyasda yayıla biləcəyindən ehtiyat edənlər qızıla yatırılan sərmayələrin miqdarını artırır. Bu da, öz növbəsində, qızılı sürətlə bahalaşdırır. Ekspertlər müəyyən müddət prosesin məhz bu istiqamətdə gedəcəyini proqnozlaşdırır. Çünki artıq dünya üzrə 27 ölkədə 80 minə yaxın insanın koronavirusa yoluxma halı, 2500-dən çox insan ölümü müəyyən edilib. Hər keçən gün bu rəqəm daha da artır. Çinin şərqindəki Uhan şəhərində ötən ilin dekabrında ilk dəfə müşahidə olunan və yanvarda xəstəlik kimi qeydə alınan koronavirus və ya "COVİD-19" virusu sürətlə dünyaya yayılır. Virus artıq bizim regiona da çatıb. İranda, rəsmi məlumata görə, 80 nəfərdən çox insan bu virusa yoluxub, 12 nəfər vəfat edib. Koronavirus artıq sonuncu dəhşətli epidemiya hesab olunan SARS virusunu keçib. Belə ki, 2001-2002-ci illərdə yayılan SARS virusu yer Kürəsində cəmi 8100 nəfərə yoluxub və 774 nəfər xəstəlikdən ölüb. SARS qlobal iqtisadiyyata 40 milyard dollar zərər vurub. Hazırkı koronavirus statistikası göstərir ki, bu, SARS-dan daha dəhşətli olacaq. Mütəxəssislər, hazırkı sürətlə yayılacağı təqdirdə, koronavirusun 1918-ci ildə dünyada 50 milyon insanın ölümünə səbəb olan "ispan qripi" və ya 1957-1958-ci illərdə yayılan və 1,1 milyon insanın həyatına son qoyan "Asiya qripi" kimi dəhşətli nəticələr doğura biləcəyindən narahatdır. Digər tərəfdən, iqtisadçılar bu virusun dünya iqtisadiyyatına vuracağı zərərləri hesablayır.

Məsələn, 2001-2002-ci illərdə yayılan SARS virusu dünya iqtisadiyyatına 0,1 faiz mənfi təsir edib. Lakin indi durum daha təhlükəlidir. Belə vəziyyətdə məhz qızıla tələb sürətlə artır. Elə bu səbəbdən qızıl son yeddi ildə ən yüksək qiymətə satılır. Qızılın bir unsiyasının qiyməti 1 690 dolları keçib və artım davam edir. Bu bahalaşmanın koronavirusun dünya iqtisadiyyatı üzərində fəsad törədəcəyi ilə bağlı gözləntilərdən irəli gəldiyi bildirilir. Baş verənlər Azərbaycanın da diqqət mərkəzindədir.

Xatırladaq ki, elə bu günlərdə "AzerGold" QSC dünyanı cənginə alan koronavirusun qızıl və digər əlvan metalların qiymət artımına təsirinə münasibət bildirib. Cəmiyyətin İdarə Heyətinin sədri Zakir İbrahimov deyib ki, dünya birjalarında qızılın və digər əlvan metalların qiyməti həm tələbat, həm də başqa geosiyasi vəziyyətlərlə bağlı dəyişir:"Hazırda dünya birjalarında qızılın qiymətində artım müşahidə edilir. Buna səbəb də investorların qızılı ehtiyat üçün almasıdır. Məhz bu, tələbatı artırıb. Biz 2020-ci il üçün büdcəni formalaşdıranda bir neçə qiymət proqnozlaşdırmışdıq. Hazırda isə qızılın qiyməti bizim proqnozlarımızdan yuxarıdır". Qeyd edək ki, sözügedən qurum 2019-cu ildə 57 min unsiya saf qızılın Dövlət Neft Fonduna satışını həyata keçirib. Zakir İbrahimovun sözlərinə görə, "AzerGold" QSC tərəfindən hasil edilən metalların dünya bazarlarında ixracı ilə yanaşı, Cəmiyyət tərəfindən ölkənin qızıl ehtiyatlarının Azərbaycan qızılı hesabına da formalaşması işinin təşkili istiqamətində hasil olunan qızılın Dövlət Neft Fondu tərəfindən alışı təşkil edilib. O qeyd edib ki, bu, satışın ümumi həcminin 95%-ni təşkil edir.

Qızıla tələbin sürətlə artması fonunda isə hasil edilən qızılın hamısının bu il Dövlət Neft Fondu tərəfindən alınması gözlənilir. İndi Azərbaycan Dövlət Neft Fondunun qızıl ehtiyatları davamlı artırılır. Ehtiyatlar 100 tonu keçib. Amma cari il ərzində bunun daha 50 ton artırılması gözlənilir. Qızılın qiymətinin artmasının digər səbəbi isə neft və valyuta bazarında müşahidə edilən çalxalanmalar fonunda investorların öz pullarını daha az risqli istiqamətə yönəltməsi ilə bağlıdır. Ən əsası isə, milli valyutaların mövqeyinin zəifləməsi insanların öz vəsaitlərini daha etibarlı görünən qızıla yatırmalarına səbəb olur. Hazırda bir çox ölkələrin öz valyutalarını ucuzlaşdırması fonunda dünyada müşahidə olunan da məhz budur.




Digər tərəfdən, koronavirus təhdidi üzündən dünyanın maliyyə bazarlarında gərginlik də kritik həddə çatır. Bu səbəbdən qızıla tələb artır. Xarici valyutalar, xüsusən də dünyanın əsas aparıcı valyutası olan dolların kursunda kəskin dəyişikliklər fonunda da qızılın qiyməti sürətlə artır.

**Yeri gəlmişkən, dünya bazarında emal olunmuş qızılın deyil, daha çox külçə qızılın qiyməti qalxır. Belə ki, zərgərlik məmulatlarının qiymətində ciddi dəyişiklik yoxdur və bahalaşma xam, yəni külçə qızılın qiymətində daha çoxdur. Ekspertlər isə bunu zərgərlik məmulatlarına tələbatın azalması, külçə qızılın isə əksinə, valyuta ehtiyatlarının strukturunda ən etibarlı aktiv vasitəsinə çevrilməsi ilə əlaqələndirir. Qızılın bahalaşması Azərbaycanın valyuta ehtiyatlarının tərkibində onun daha yüksək dəyər kəsb etməsinə və bu ehtiyatların miqdarının yüksəlməsinə rəvac verir.**

***Ramil QULİYEV***

# Koronavirus məsələsi fonunda Səhiyyə Nazirliyi qınaq obyektinə niyə çevrilir...

**Çində və digər ölkələrdə onlarla insanın canını alan koronavirus kabusu bütün dünyanı təhdid edir. Bir sıra ölkələrdə artıq Çin virusunun olduğu faktı təsdiqlənib. Azərbaycanda isə rəsmən koronavirusun olduğu təsdiqlənməyib, ölkəmizdə bu virus yoxdur.**

Məlum olduğu kimi, yanvarın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Nazirlər Kabinetində Ümumdünya Səhiyyə Təşkilatının və Çin Xalq Respublikası hökumətinin elan etdiyi kimi, Çinin Uhan şəhərində yayılmış və artıq dünyanın başqa regionlarında da qeydə alınmış koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlərin görülməsi üçün müşavirə keçirilmişdi.

Onu da qeyd edək ki, ölkə başçısının tapşırığına əsasən, Azərbaycanda koronavirusla bağlı Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, 1 saylı Kliniki Tibbi Mərkəz və 7 saylı Uşaq infeksion xəstəxanasında xüsusi palatalar ayrılıb.

Ölkəmizdə Çin virusu təhlükəsinin olmasına baxmayaraq, dövlət bu sahədə artıq qabaqlayıcı tədbirlər həyata keçirib. Bütün xəstəxanalarda, idarə və müəssisələrdə, orta məktəblərdə, bağçalarda, metropolitendə və s. yerlərdə qabaqlayıcı tədbirlər görülüb. Sərhəd-keçid məntəqələrində, gömrükdə də bu istiqamətdə tədbirlərin həyata keçirildiyi faktdır.

Azərbaycanda Çin virusunun olmamasına baxmayaraq, dövlət əvvəlcədən ehtiyat tədbirləri görməklə bu məsələnin nəzarətdə saxlandığını bir daha vətəndaşlara bildirir.

Çin virusunun qonşu İranda peyda olması xəbərinin ardınca bu virusun Azərbaycanın bəzi bölgələrində yayılması ilə bağlı şayiələrin yaranmasına səbəb olub. Hətta həqiqətə uyğun olmayan məlumatlar yayılıb ki, guya bizim ölkəmizdə Çin virusu diaqnozu ilə xəstəxanalara yerləşdirilən insanlar var. Bu məsələ də rəsmən öz təsdiqini tapmayıb. Dövlət öz vəzifəsini yerinə yetirsə də, bütün qurumlar qabaqlayıcı tədbirlər həyata keçirsələr də, bəzi aidiyyəti qurumlar tərəfindən yaradılan informasiya boşluğu bu cür şayiələrin meydana çıxmasına şərait yaradıb.

Məlumdur ki, sosial şəbəkələrdə yayılan naməlum və şübhəli səs yazılarına inansaq, artıq koronavirus "Azərbaycana da gəlib çatıb". Bir həftəyə yaxındır ki, vətəndaşlarımız ölkəmizdə olmayan koronavirusa "yaxalanmamaq" üçün müxtəlif üsullardan yararlanırlar. Başlıcası isə apteklərdən spirti, qoruyucu maskaları daşımaqla özlərini təhlükəsiz vəziyyətdə hiss etmək istəyirlər. Fakt budur ki, hazırda paytaxt apteklərində spirt də, qoruyucu maskalar da qəhətə çəkilib. Az-çox apteklərdə varsa da, onun da qiyməti 5-6 qat bahalaşıb. İşbazların əlində olan apteklər insanların təşviş və əndişəsindən sui-istifadə edərək qiymətləri bir neçə qat qaldırıblar.



Dövlətin qabaqlayıcı tədbirlər görməsinə baxmayaraq, aidiyyəti qurumların yaratdıqları informasiya boşluğundan istifadə edən qüvvələrin yaydıqları şayiələrdən, yalan məlumatlardan insanlar əndişələnir, ölkəmizdə olmayan koronavirus "təhlükəsi"ndən narahat olurlar. Səhiyyə Nazirliyinin Baş epidemioloqu İbadulla Ağayevin "nəyə deyirsiniz and içim ki, ölkədə sabitlikdir və koronavirus yoxdur" açıqlamasını nəzərə almasaq, demək olar ki, Səhiyyə Nazirliyi əhalini məlumatlandırmır.

Nazirliyin Baş epidemioloqu isə açıqlamanı fevralın 24-də, yəni sosial şəbəkələrdə qorxulu səs yazıları yayıldıqdan, təhlükənin mövcudluğu ilə bağlı fikirlər səsləndirildikdən, vətəndaşlar artıq "tədbir" gördükdən sonra verib. "Bu gün Azərbaycanda koronavirusa yoluxan insan yoxdur. Səhiyyə Nazirliyi bu kimi hallardan qorunmaq üçün hər zaman qabaqlayıcı tədbirləri yüksək səviyyədə görür. Hazırda ölkədə epidemioloji həddi aşan heç bir yoluxucu xəstəlik qeydə alınmayıb. Buna tam əmin ola bilərsiniz". Halbuki, nazirlik yetkililəri Azərbaycanda koronavirus epidemiyasının olduğu iddiasının hələ meydana çıxmadığı vaxtdan açıqlamalar verməyə başlamalı idilər.

Müşavirənin keçirilməsindən bir aya yaxın vaxt keçməsinə baxmayaraq, Səhiyyə Nazirliyi əhali arasında koronavirs təhlükəsi ilə bağlı heç bir maarifləndirici iş aparmayıb. Bu müddət ərzində nazirliyin aidiyyəti sektorlarının rəhbərləri, əməkdaşları camaatla hər hansı bir şəkildə ünsiyyətdə olmayıb, onları sakitləşdirmək üçün heç bir addım atmayıblar. Kabinetlərdə, kağız üzərində ömrünü başa vuran qərarlar, qaydalar vətəndaşların işinə yaramır. Ölkə əhalisinin sağlamlığına birbaşa cavabdeh olan Səhiyyə Nazirliyinin Baş epidemioloqunun "bəziləri əllərində dəqiq məlumat olmadığı halda, yalan informasiyalarla camaatı qorxudub xofa salırlar. Əmin ola bilərsiniz ki, ölkədə koronavirusa yoluxma faktı aşkarlansa, bunu hamıdan əvvəl nazirliyin rəsmisi kimi özüm xəbər verəcəm. Allah o virusu bizdən kənar eləsin" açıqlaması daldan atılan daşa bənzəyir.

Artıq əhali təşviş içindədir, ölkəmizə ayağı, nəfəsi dəyməyən bir virusla "döyüş vəziyyəti"ndədir, lap Don-Kixot sayağı. Əslində, vəziyyət bu cür olmalı deyildi. İnsanlar olmayan bir təhlükədən bu qədər əndişələnməməli idilər. Hamı gözünü nazirlik rəsmilərinin ağzına dikmişdi ki, bəlkə onlar tez-tez "ölkəmizdə koronavurus təhlükəsi yoxdur, vəziyyət tam nəzarətdədir" desinlər. Halbuki, Səhiyyə Nazirliyi gün ərzində bir neçə dəfə telekanallarda, sosial şəbəkələrdə əhalini qorxmamağa, əndişələnməməyə çağırmalı, ölkəmizdəki vəziyyətlə, yayılan şayiələrlə bağlı açıqlamalar verməli idi. Nazirliyin qorxulu, əndişəli, insanları təşvişə salan uydurma, yalan informasiyalar yayıldıqdan sonra məsələyə reaksiya verməsi ölkə ictimaiyyətini ciddi narahat edir və insanlar nazirliyi qeyri-operativlikdə suçlayırlar.

Səhiyyə Nazirliyinin susduğunu görən Azərbaycanı istəməyən qüvvələr öz təxribatçı dəstələrindən istifadə edərək cəmiyyətimizdə təşviş yaratmağa cəhd etdilər. Hətta buna müəyyən mənada nail oldular da. Onlar bu istiqamətdəki boşluqdan istifadə etdilər. Yadınıza gəlirsə, bir neçə il əvvəl "quş qripi" və "donuz qripi" ilə də bağlı ölkə əhalisi arasında təşviş yaratmaq istəyən qruplar meydana çıxmışdı. İnsafən, deyək ki, həmin dövrlərdə Səhiyyə Nazirliyinin mətbuat xidməti daha çevik işləyir və maarifçilik işini həyata keçirirdi. Hesab edirik ki, Səhiyyə Nazirliyi bundan sonra bu istiqamətdə mövcud olan informasiya boşluğunu doldurmaq üçün vaxtlı-vaxtında ictimaiyyəti informasiya ilə təmin edəcək.

***İradə SARIYEVA***

№ 35 (4166) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

26 FEVRAL 2020-ci il

www.baki-xeber.com



# Sahibini itirən it polis bölməsinə gəlib "yardım istədi"

**ABŞ-da maraqlı olay yaşanıb. "Milli.Az" xarici mətbuata istinadla bildirir ki, ABŞ-ın Texas ştatında polis idarəsinə daxil olan iti görən şəxslər təəccübləniblər.**

Belə ki, "Çiço" adlı it öz sahibini itirdikdən sonra ona yardım edilməsi üçün polis idarəsinə gedib. O, ayaqlarını məlumat mərkəzinin pəncərəsinə qoyaraq polislərdən yardım istəyib.

Bir neçə saat sonra itin sahibi tapılıb. İt sahibi ilə birlikdə qaldığı evə qayıdıb.

## İlk Novruz hədiyyəniz "Azercell"dən olsun!

**Telekommunikasiya sahəsində hər zaman istifadəçilərinə rəngarəng həllər təqdim edən "Azercell Telekom" MMC qarşıdan gələn Novruz bayramı ərəfəsində fakturasız xətt abunəçilərinə xüsusi endirimlər təklif edir.**

Novruz adət-ənənəsinə görə, hər çərşənbə təbiətin Su, Od, Yel və Torpaq kimi 4 əsas ünsürünün oyanması qeyd edilir. Bu il də, hər zaman olduğu kimi, "Azercell" öz abunəçilərini sevindirməyə davam edir və xüsusi kampaniyaya start verir.

Belə ki, "Azercell" fevral ayının 25-dən başlayaraq hər çərşənbə axşamı xüsusi endirim kampaniyaları keçirir və müxtəlif tarif və internet paketlərinə qoşulma zamanı xüsusi endirimlərdən yararlanmaq imkanı yaradır.

Bayramın ilk kampaniyası fevral ayının 25-i bütün fakturasız xətt abunəçiləri üçün "Sərbəst 15" tarifinə qoşulma zamanı 20% endirim kampaniyası oldu.

"Azercell" yalnız bayram günlərində deyil, eləcə də bütün il boyu evlərinizin sevinclə dolu olmasını arzu edir!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Bakı şəhəri, Nəsimi rayonu, H.B.Əliyev küçəsi, 52 saylı yaşayış evinin 1 saylı mənzil ünvanı üzrə Hüseynova Nazilə Rəhim qızının adına, Bakı Şəhər İcra Hakimiyyəti Texniki İnventarlaşdırma və Mülkiyyət Hüquqlarının Qeydiyyatı İdarəsi tərəfindən verilmiş 01.05.1996-cı il tarixli (314 saylı reyestr kitabında 1194 saylı sıra) qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ələskərov Alek Musa oğluna məxsus, Abşeron rayonu, Novxanı kəndində yerləşən, reyestr nömrəsi 308013023648 olan 0.0584 ha torpaq sahəsinin çıxarışı və plan ölçüsü itdiyi üçün etibarsız sayılır.

Xalsayev Emin Qaybalı oğluna "Azərişıq" ASC tərəfindən verilmiş 04-052 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

İsayeva Gövhər İsabala qızının adına, Bakı şəhəri, Qaradağ rayonu, Ələt qəsəbəsi, 1587-ci keçid, bina 1, mənzil 30 ünvanının seriya N 101000 nömrəli qeydiyyat vəsiqəsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Məmmədov Emil Məhəbbət oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, X.Şuşinski küçəsi 73, mənzil 2 ünvanının seriya RX N 1334702 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

## "Nar" 4G istifadəçilərinin sayı 1 milyonu ötüb!

**Müştərilərinə hər zaman keyfiyyətli şəbəkə təcrübəsi təqdim edən "Nar"ın 4/4.5G şəbəkəsinə qoşulan və aktiv şəkildə istifadə edən abunəçilərinin sayı 1 milyonu ötüb. Son bir ildə Bakı və regionlarda quraşdırılmış 1000-dən çox yeni LTE/LTE-A texnologiyalı baza stansiyaları sayəsində "Nar"ın, ümumilikdə, 4G istifadəçilərinin sayı iki dəfə artıb.**




Mobil operator paytaxtla yanaşı, regionlarda da şəbəkəsinin gücləndirilməsinə hər zaman xüsusi önəm verib. Belə ki, təkmilləşmə işləri nəticəsində ötən illə müqayisədə müxtəlif bölgələr üzrə 4G istifadəçilərinin sayında 101% artım qeydə alınıb. 4G şəbəkəsinə qoşulan 1 milyonuncu istifadəçi də məhz region sakini - Oğuz rayonundan Müşviq Babayev olub. "Nar"ın Baş icraçı direktoru Qunnar Panke tərəfindən "Nar"ın baş ofisində qarşılanan 1 milyonuncu 4G istifadəçisinə ən son model dəyərli smartfon hədiyyə edilib.

"Keyfiyyətli və yüksəksürətli LTE/LTE-A şəbəkəsinin daha da genişləndirilməsi müştəriyönümlü biznes yanaşmamızın əsas istiqamətlərindəndir. Ən gənc mobil operator olaraq, mühüm bir nailiyyətimizi qeyd edirik. Belə ki, 4G şəbəkəmizdən yararlanan abunəçilərimizin sayı artıq 1 milyonu ötüb. Bu isə hər iki "Nar" abunəçisindən birinin aktiv 4G istifadəçisi olması deməkdir. "Nar"ın müştərilər tərəfindən yalnız rahat və sərfəli məhsullar üçün deyil, həm də keyfiyyətli şəbəkəsinə görə seçilməsi bizi sevindirir", - deyə Qunnar Panke bildirib.

"Nar"ın 4G abunəçilərinin sayının artmasına ölkə ərazisində yeni baza stansiyalarının quraşdırılması, mobil operatorun təqdim etdiyi paketlər və tariflər, eləcə də 4G smartfon penetrasiyasının artımı təsir edib. "Nar" artıq 54 bölgə mərkəzini 4G şəbəkəsi ilə təmin edib ki, bu da coğrafi ərazi əhatəsini 76%-ə qaldırıb. Hazırda "Nar"ın 4G şəbəksi ölkə əhalisinin 93,2%-ni əhatə edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,9%-ni əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Emosional baxımdan kasad gün olsa da, iş qabiliyyəti və ambisiyalar güclənir. İş sistemli yanaşma tələb edir. Maliyyə məsələlərinin həlli, yeni əməkdaşlıq formalarının axtarışı, fəaliyyətin optimallaşdırılması üçün əlverişli vaxtdır.



**Buğa** - Kollektiv qərarlar məqsədə doğru hərəkəti sürətləndirə bilər və bunun üçün ambisiyalarınızdan keçməyin. Bütün təsir rıçaqlarına malik deyilsinizsə, proseslərə nəzarət etməyə çalışmayın.



**Əkizlər** - Yeni məlumatlarla informasiyalar həyatınızdakı bəzi dəyərlərlə bağlı düşünməyə vadar edəcək. Yeni planların reallaşdırılması üçün daha çox məkan və vaxta ehtiyacınız var.



**Xərçəng** - Bir qədər tək qalın, strateji məqsədləri düşünün, işin məqsədi və münasibətlərin mənalarını təhlil edin. Gün ünsiyyət, qəfil görüş və hələr vəd edir. Əgər hansısa söhbətə ehtiyac duyursunuzsa, əlverişli mühit yaradın.



**Şir** - Qarşılıqlı mənfəət vəd edən yeni əməkdaşlığa başlamaq vaxtıdır. Lakin ehtiyatlı olun, çünki enerjiniz ikinci dərəcəli məsələlərin həllinə yönələ bilər. Həmin məsələlər emosional baxımdan cazibədar olsa da, yetərli potensiala malik deyil.



**Qız** - Yeni planlar və istəklər var. Lakin sizi nə isə geri çəkir, həyata keçməyən və reallaşmayan arzularla ümidləri yada salır. Pərişan edən informasiya ala bilərsiniz. Harayasa getmək, problemləri həll etmək, çətin vəziyyətdən çıxış yolu aramaq ehtiyacı yaranıb.



**Tərəzi** - Maneələrlə sədləri aradan qaldıraraq yaxın ətrafınızdakı insanlara başa salın ki, sizə mane olmasınlar. Mühüm informasiyanın alınması mümkündür. Faydalı ideyalar istisna deyil. İşgüzar əməkdaşlıqda yeniliklər, problemlərin uğurlu həlli, suallara tam cavabların alınması mümkündür.



**Əqrəb** - Problemlər çətinləşir, situasiya isə inkişaf və transformasiya istəyir. Ambisiyalarınız arta bilər. Vurnuxmaya çox fikir verməyin. Yalnız perspektivdə gərəyiniz ola biləcək informasiyaya fikir verin.



**Oxatan** - Mənasız hay-küy, fəallıq az olmaycaq. Lakin məlumatları və gələn informasiyaları süzgəcdən keçirməklə onların arasında dəyərli nə isə aşkarlaya bilərsiniz. Həyatınızı çətinləşdirən məqamlarınızdan bəhrələnməyə çalışın.



**Oğlaq** - Diqqəti bir mövzuda, bir işdə cəmləşdirin. Günün ikinci yarısı işgüzar görüşlər və danışıqlar üçün faydalıdır. Rəhbərlik və ya tərəfdaşla yeni ideyanı müzakirə etmək, köhnə planlarla ideyaları nəzərdən keçirmək olar.



**Dolça** - Mövcud şərtlər sizi qıcıqlandıracaq. Rəqiblərin əməllərinə fikir verməyin, tərəfdaş və ya həmkarlarla fəaliyyətinizin nizamlanmasına çalışın. Şəxsi münasibətləri qulaqardına vurmayın, işi yaşam mütləqiyyətinə çevirməyin.



**Balıqlar** - Tələsməyin, işlərin hamısını eyni vaxtda görməyə çalışmayın. Bir qədər fasilə edin. İşdə münasibətlərin gərginləşməsi, düşünülməmiş qiymətləndirmələr, ifrat məsuliyyət mümkündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ən uzunömürlü kişi kimi "Ginnesin Rekordlar Kitabı"na salınan 112 yaşlı Yapona "göz dəydi"



**Yaponiyanın Niiqata prefekturasının 112 yaşlı sakini - bu ayın əvvəlindən dünyada ən uzunömürlü kişi kimi "Ginnesin Rekordlar Kitabı"na düşən Titetsu Vatanabe dünyasını dəyişib.**

Bildirilir ki, Vatanabe 5 mart 1907-ci ildə doğulub, fevralın 23-də vəfat edib. Ən uzunömürlü kişi titulunun ondan əvvəlki sahibi də yaponiyalı olub. 113 yaşlı Masadzo Nonaka ötən il yanvarın 20-də dünyasını dəyişib. Qeyd edək ki, yaponlar ənənəvi olaraq ən uzunömürlü insanların siyahısında ön pillələrdə yer alır. Dünyanın ən qoca qadını statusunun sahibi 117 yaşlı Kane Tanaka həm də ən uzunömürlü insan kimi "Ginnesin Rekordlar Kitabı"na düşüb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.